1 dekabr 2021 №89 (1866) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Bakıda Aşıq Ələsgərin abidəsi ucaldılacaq

Azərbaycan saz-söz sənətinin böyük ustadı Aşıq Ələsgərin Bakı şəhərində abidəsi ucaldılacaq.

Prezident İlham Əliyev noyabrın 30-da bununla bağlı sərəncam imzalayıb. Sərəncam Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə imzalanıb.

Bakı Şəhər İcra Hakimiyyətinə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Aşıq Ələsgərin abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etmək, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının Tərəfdaşlar Forumu

Dekabrın 2-də ADA Universitetində "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının Tərəfdaşlar Forumu ("Peace4Culture" Partners Forum) keçiriləcək.

BMT-nin Sivilizasiyalar Alyansı, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İCESCO), ADA Universiteti və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin birgə təşkil etdiyi tədbirdə dövlət rəsmilərinin, bir sıra beynəlxalq təşkilatların və sülhün təşviqi üzrə ixtisaslaşmış institutların, diplomatik korpusun rəhbər şəxsləri və nümayəndələrinin iştirakı nəzərdə tutulub.

Forumda üç mövzu üzrə panel sessiyalar keçiriləcək: "Yalnız mədəniyyətin sülh üçün nə edə biləcəyini deyil, sülhün də mədəniyyət üçün nə edə biləcəyini düşünək"; "Sülhsevər cəmiyyətləri və beynəlxalq sülh sistemini dayanıqlı şəkildə necə gücləndirə bilərik?"; "Sülh və təhlükəsizlik çağırışları: çoxtərəfli əməkdaşlığın qurulması".

## İnsanlıq var olduqca Nizami ideyaları da yaşayacaq

Dahi Azərbaycan şairinin bəşəriyyəti sülhə, əmin-amanlığa, birliyə, bərabərliyə, inkişafa, yeniliyə səsləyən idealları hər zaman aktualdır. İnsanlıq var olduqca Nizami ideyaları da yaşayacaq, böyük söz ustadı bizim müasirimiz olaraq qalacaq.

Bu fikirlər 24-26 noyabr tarixində Bakıda keçirilən Nizami Gəncəvi Beynəlxalq Forumunda edilən çıxışların, dinlənilən məruzələrin ümumi leytmotivi kimi qəbul oluna bilər.

Forumun rəsmi sənədi – bütün iştirakçılar adından qəbul edilən kommünike də bunu ifadə edir: "Nizami dühasının zaman-məkan məfhumundan asılı olmayan ideyaları qlobal miqyasda fərqli mədəniyyətlər və sivilizasiyalar haqqında təsəvvürün təşəkkülü baxımından olduqca əhəmiyyətli olmaqla yanaşı, güclü təsir və nüfuza malikdir. Dahi Nizaminin əsərlərində istər ayrı-ayrı insanların inkişafına, istərsə də ümumilikdə cəmiyyətə aid olan bir sıra məsələlər işıqlandırılır, insan həyatının, demək olar ki, bütün aspektləri xüsusunda ensiklopedik yanaşma tərzi nümayiş etdirilir".

davamı səh. 3-də

## Türk Dövlətləri Təşkilatı Azərbaycan xalqına başsağlığı verib

Türk Dövlətləri Təşkilatı noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin təlim uçuşları yerinə yetirərkən qəzaya uğraması ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verib.

Bu barədə təşkilatın "Twitter" səhifəsində paylaşım edilib. Paylaşımda deyilir: "Bu gün Azərbaycanda Dövlət Sərhəd Xidmətinə aid helikopterin qəzaya uğraması xəbərini kədərlə öyrəndik. Bu faciəvi qəzada həlak olanlara Allahdan rəhmət, yaralılara şəfa diləyir, qardaş Azərbaycan xalqına və qəhrəman Silahlı Qüvvələrinə dərin hüznlə başsağlığı veririk".



## Tahir Salahovun xatirəsi anılıb

səh. 5

# TÜRKSOY Aşıq Ələsgəri Türkiyədə tanıdır

### Ustad sənətkarın 200 illiyi münasibətilə Ankarada və Sivasda tədbirlər

Bu il anadan olmasının 200 illiyi qeyd olunan Azərbaycan saz-söz sənətinin qüdrətli ustadı Aşıq Ələsgər ümumtürk ədəbi və mədəni irsində böyük iz qoymuş şəxsiyyətlərdəndir. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən Türk dünyasının görkəmli şəxsiyyətlərinin, o cümlədən söz ustadlarının tanıdılması, təbliğ edilməsi istiqamətində layihə və tədbirlərin keçirilməsi ənənə halını alıb. Noyabrın 27-də Ankarada, TÜRKSOY-un qərargahında Aşıq Ələsgərin anadan olmasının 200-cü ildönümü münasibətilə keçirilən mərasim də bu qəbildəndir.



Azərbaycanın Mədəniyyət Nazirliyi, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycanın Türkiyədəki Səfirliyi, Milli Məclisin Mədəniyyət komitəsi, Azərbaycan Aşıqlar Birliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə gerçəkləşən mərasimdə türkcə "Aşıq Ələsgərin seçilmiş şeirləri" kitabının təqdimatı da olub.

Tədbirin rəsmi hissəsində TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Azərbaycan Milli Məclisi Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Azərbaycanın Türkiyədəki Səfirliyinin birinci katibi Elxan Zeynalov, Azərbaycan Mədəniyyət Nazirliyinin nümayəndəsi Nərmin İsmayılova çıxış ediblər.

Düsen Kaseinov Aşıq Ələsgəri Azərbaycan ozan ədəbiyyatının klassiklərindən biri olduğunu bildirib. "Türk dünyasının böyük ozanı Aşıq Ələsgərin yüksək sənətini Türkiyə sənətsevərlərinə tanıtmaq için onun şeirlərindən seçmələrdən ibarət kitabı təqdim etməkdən məmnunluq duyuruq" deyən Düsen Kaseinov TÜRKSOY tərəfindən nəşr olunan kitab barədə də məlumat verib. O, Aşıq Ələsgərin kitabda yer alan şeirlərini Türkiyə türkcəsinə çevirmiş şair Kənan Çarboğaya və nəşrin ərsəyə gəlməsində əməyi olmuş hər kəsə minnətdarlığını bildirib.

Mərasimdə çıxış edən Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Azərbaycan Prezidenti İlham Əliyevin Aşıq Ələsgərin anadan olmasının 200 illik yubileyinin keçirilməsi haqqında sərəncamının əhəmiyyətini vurğulayaraq bu kontekstdə Türk dünyasında fəaliyyət göstərən qardaş təşkilatların yubileyə töhfə olan təşəbbüslərini yüksək qiymətləndirib. Qeyd edib ki, Aşıq Ələsgər irsinin təbliği həm də onun doğulduğu, yaşayıb-yaratdığı Azərbaycanın qədim yurd yeri Göyçənin, bu torpağın mədəni irsinin tanıdılmasıdır: "Aşıq Ələsgər Göyçə deməkdir".

davamı səh. 8-də

## "Varlığın fraqmentləri"

### Milli Xalça Muzeyində gürcü rəssamın sərgisi

Noyabrın 30-da Azərbaycan Milli Xalça Muzeyində gürcü rəssam, sənətşünas Nino Kipşidzenin "Varlığın fraqmentləri" adlı sərgisinin açılışı keçirildi. Sərgi Azərbaycan Mədəniyyət Nazirliyi, Milli Xalça Muzeyi və Gürcüstanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə reallaşır.

Açılışdan əvvəl media nümayəndələri üçün muzeydə press-tur təşkil edildi. Nümayiş olunan xalça və xalça məmulatları haqqında jurnalistlərə məlumat verildi.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova qonaqları salamlayaraq sərgi barədə söz açdı. Qeyd etdi ki, ekspozisiyada Nino Kipşidzenin oturtma tikmə texnikasında yaratdığı 45 panno nümayiş olunur. Təqdim olunan əsərlərdə müxtəlif rəngli və fakturalı parça fraqmentlərinin yaratdığı təkrarolunmaz səth vizual olaraq ikiölçülü müstəvini "yarıb keçərək" tamaşaçıya yeni, ecazkar, çoxölçülü bir dünya açır: "Bu əsərlər sanki tekstildə rəngkarlıqdır. İlk dəfə 2017-ci ildə Nino xanımın emalatxanasında olanda bu əsərlərə heyran olmuşdum. Rəssam əsərlərində Şərq və Qərb estetikasının sintezini yaradır".




Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze diqqətə çatdırdı ki, sərginin təşkili ölkələrimiz arasında dostluğu gücləndirən amildir: "Mədəni əlaqələrin inkişafı xalqları bir-birinə daha yaxın edir. Əminəm ki, sərgidən böyük zövq alacaqsınız. Fürsətdən istifadə edib Azərbaycanın Mədəniyyət Nazirliyinə və Xalça Muzeyinə təşəkkürümü bildirirəm. Bu sərgi ölkələrimiz arasında mədəni əlaqələrə bir töhfədir".

davamı səh. 2-də

## Varşavada Nizaminin yubileyi qeyd edilib

Polşanın paytaxtı Varşavada dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə tədbir keçirilib.



Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Polşadakı səfirliyimizin təşkilatçılığı ilə gerçəkləşən tədbirdə yerli ictimaiyyətin, diplomatik korpusun, Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Polşa Elmlər Akademiyasının rəhbəri Jeji Duşinski çıxış ediblər. Qüdrətli söz ustadının əsərlərində ülvi hissləri, humanizm, xeyirxahlıq, ədalət kimi dəyərləri tərənnüm etdiyi, Azərbaycan və dünya ədəbiyyatını misilsiz töhfələrlə zənginləşdirdiyi nəzərə çatdırılıb.

Tədbirdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Azərbaycan Milli Elmlər Akademiyası, Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycanın Polşadakı Səfirliyinin birgə əməkdaşlığı çərçivəsində Nizami haqqında polyak dilində nəşr olunan "Kağıza incitək sözlər düzən şahlar şahıyam" kitabı və poçt markaları təqdim olunub. Kitabın təqdimatını Polşa Yazıçılar Birliyinin sədri Anna Naşilovska, poçt markalarının təqdimatını "Poczta Polska" Səhmdar Cəmiyyətinin Beynəlxalq əməkdaşlıq və ticarət şöbəsinin rəhbəri Kşiştof Gurski ediblər.

"Kağıza incitək sözlər düzən şahlar şahıyam" kitabında yer alan rəsmlərdən ibarət sərginin də nümayiş olunduğu tədbir konsert proqramı ilə yekunlaşıb. Konsertdə Vyanada yaşayan pianoçu, bəstəkar, dirijor Abuzər Manafzadə, vokalçı Karen Danqer-Manafzadə və başqaları çıxış ediblər.

## Gəncədə kitab bayramı

Dahi Azərbaycan şairi və mütəfəkkirinin doğma yurdu Gəncə "Nizami ili"ndə daha bir tədbirə ev sahibliyi edib. 26-28 noyabr tarixində "Azərbaycan Nəşriyyatları" İctimai Birliyinin (ANİB) təşkilatçılığı ilə F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının Urban Mərkəzində I Gəncə Kitab Sərgisi keçirilib.

Mədəniyyət Nazirliyi, Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Regional Mədəniyyət İdarəsi (RMİ) və Gəncə İctimai İştirakçılıq Məclisinin dəstəyi ilə keçirilən sərgi əlamətdar ilə həsr olunub.

Kitab bayramının açılış mərasimində xarici işlər nazirinin müavini Elnur Məmmədov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, millət vəkilləri Sabir Rüstəmxanlı, Müşfiq Cəfərov, Pərvin Kərimzadə, Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin əməkdaşı Kamran Musayev, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, yazarlar,



mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri iştirak edib.

davamı səh. 4-də

## Qədim Musiqi Alətləri Ansamblının 25 illiyi qeyd edilib



səh. 3

## Tammetrajlı bədii film layihələrinə dəstək üçün müsabiqə elan olunub

səh. 3



## "Sonuncu" filmi daha iki mükafat qazanıb

səh. 8

№89 (1866)
1 dekabr 2021
www.medeniyyet.az

## Prezident helikopter qəzasında həlak olanların ailələrinə başsağlığı verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə başsağlığı verib.

"2021-ci ilin noyabrın 30-da Xızı rayonu ərazisindəki "Qaraheybət" aviasiya poliqonunda Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində heyət üzvlərinin həlak olması xəbəri bizi son dərəcə kədərləndirdi.

Bu ağır itkinin acısını Sizinlə yaşayır, dərdinizi bölüşür, Sizə və doğmalarınıza Mehriban xanım ilə birlikdə dərin hüznlə başsağlığı veririk.

Allah rəhmət eləsin!" – deyə başsağlığında qeyd olunur.

***

Qeyd edək ki, Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, hərbi helikopterin Xızı rayonu ərazisindəki "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları zamanı qəzaya uğraması nəticəsində 14 nəfər həlak olub: polkovnik Cavadov Fizuli Əli İbram oğlu; polkovnik-leytenant Nəzirov Emil Nəzir oğlu; mayor Həsənov Elmir Mircəlil oğlu; mayor Əhmədov Elbrus Səmrəddin oğlu; mayor Mayılov Emil Şahid oğlu; mayor Məmmədov Murad Yaşar oğlu; mayor Əliyev Emil Elman oğlu; tibb xidməti kapitanı Əhmədxanov Ceyhun Xanlar oğlu; kapitan Bayramlı Cavid Əhliman oğlu; kapitan Əliyev Xəyyam Əlixan oğlu; kapitan Qaraisayev Teymur Ənvər oğlu; leytenant Süleymanov Abdulla Telman oğlu; baş leytenant Nağıyev Fərid Təyyar oğlu; işçi Nəbiyev Elçin Fikrət oğlu.

Hadisə zamanı 2 nəfər – polkovnik-leytenant Cəfərov Emil Məmməd oğlu və kapitan Ədilov Ramin Ramiz oğlu yaralanıblar.

## Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və iqtisadi inkişaf naminə

Xəbər verildiyi kimi, noyabrın 26-da Soçi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə keçirilən görüşün yekunu olaraq birgə Bəyanat imzalanıb.

Bəyanatda deyilir:

Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin 2021-ci il noyabrın 26-da Soçi şəhərində görüşdük və Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tamamilə dayandırılması haqqında 2020-ci il 9 noyabr tarixli Bəyanatın, həmçinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası haqqında 2021-ci il 11 yanvar tarixli Bəyanatın yerinə yetirilməsinin gedişini müzakirə etdik.

Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və iqtisadi inkişafın təmin edilməsi naminə 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatların bütün müddəalarının bundan sonra ardıcıl surətdə yerinə yetirilməsinə və dönmədən riayət olunmasına tərəfdar olduğumuzu təsdiq etdik. 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatlardan irəli gələn, həllini gözləyən məsələlərin tezliklə həllinə yönəlmiş birgə səyləri fəallaşdırmaq barədə razılığa gəldik.

Regionda vəziyyətin sabitləşməsinə və təhlükəsizliyin təmin edilməsinə Rusiya sülhməramlı kontingentinin mühüm töhfəsini qeyd etdik.

Azərbaycan-Ermənistan sərhədində sabitlik və təhlükəsizlik səviyyəsinin artırılması üzrə addımlar atmağı və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası, sonradan tərəflərin sorğusu əsasında Rusiya Federasiyasının məsləhət yardımı ilə sərhədin demarkasiyası üzrə ikitərəfli komissiya yaradılması barədə şərtləşdik.

2021-ci il 11 yanvar tarixli Bəyanata müvafiq olaraq, Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirlərinin müavinlərinin və Rusiya Federasiyası hökumətinin sədrinin müavininin birgə sədrliyi ilə regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə təsis edilmiş Üçtərəfli İşçi Qrupunun fəaliyyətini yüksək qiymətləndirdik. Regionun iqtisadi potensialının üzə çıxarılması məqsədilə konkret layihələrin tezliklə həyata keçirilməsinin zəruriliyini vurğuladıq.

Rusiya Federasiyası Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşması, Azərbaycan və erməni xalqları arasında etimad mühitinin formalaşması, habelə regionda mehriban qonşuluq münasibətlərinin bərqərar olması məqsədilə bundan sonra da zəruri olan hər cür köməyi göstərəcək.

## Madriddə yeni çapdan çıxmış "Yeddi gözəl" kitabının təqdimatı

Azərbaycan Dövlət Tərcümə Mərkəzinin təşəbbüsü ilə Madriddə çap olunmuş Nizami Gəncəvinin "Yeddi gözəl" kitabının təqdimat mərasimi keçirilib. Tədbir "Espacio Ronda" Mədəniyyət Mərkəzində təşkil olunub.

İspaniyanın Mühyiddin ibn əl-Ərəbi Cəmiyyətinin sədri, filologiya elmləri doktoru, professor Pablo Beneito tədbiri giriş sözü ilə açaraq böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Yeddi gözəl" poemasının dünya poeziyasına təsirindən, Azərbaycan Dövlət Tərcümə Mərkəzinin İspaniya-Azərbaycan ədəbi əlaqələrinin inkişafına, iki ölkə arasında ədəbiyyatlararası mübadilələrə verdiyi əlamətdar töhfələrdən danışıb.

Daha sonra "Mandala Ediciones" nəşriyyatının direktoru Fernando Kabal Riera, yazıçı-rəssam Ana Krespo, Azərbaycanın İspaniyadakı Səfirliyinin nümayəndəsi Məqsəd Hüseynov və digər qonaqlar çıxış edərək Nizami Gəncəvi poeziyasının dərin hikmətlərindən, ədaləti, humanizmi, bərabərliyi, insanlığa sevgi və mərhəməti tərənnüm edən bəşəriliyindən söz açıblar.

Tədbirin sonunda yazıçı-rəssam Ana Krespo sufizm mövzusunda çəkdiyi rəsmlərin slaydlarını nümayiş etdirib, mövzuya dair sualları cavablandırıb.

Qeyd edək ki, "Yeddi gözəl" poeması ilk dəfə Madriddə 2000-ci ildə işıq üzü görüb və həmin kitabın ön sözündə Nizami Gəncəvi oxuculara "fars şairi" kimi təqdim edilib.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi ərəfəsində Dövlət Tərcümə Mərkəzinin təşəbbüsü və səyləri nəticəsində əsər yenidən, bu dəfə Nizaminin dahi Azərbaycan şairi olduğunu elmi dəlillər və faktlarla sübuta yetirən yeni ön sözlə (müəllif – görkəmli nizamişünas-alim Rüstəm Əliyev) nəşr olunub.

"Mandala Ediciones" nəşriyyatında çap olunmuş kitabın ispan dilinə tərcümə müəllifi tanınmış mütərcim Karmen Linares, redaktoru ispan filoloqu Fransisko Kapilla Martindir.

# Azərbaycan özünün resurslarına arxalanaraq azad olunmuş ərazilərini bərpa edir

### "Zəngəzur dəhlizi Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin önəmli hissəsinə çevriləcək"

Ərazilərin azad olunmasından dərhal sonra biz genişmiqyaslı yenidənqurma işlərinə başlamışıq ki, artıq onların ilkin nəticələri var. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salır. Bu il bu məqsədlərə dövlət büdcəsindən 1,3 milyard ABŞ dolları ayrılmışdır. 2022-ci ildə də bu işlərə ən azı eyni həcmdə vəsait ayrılacaq.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bunu noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə toplantısında çıxışı zamanı deyib.

Dövlət başçısı diqqətə çatdırıb ki, 2020-ci ildə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoydu. 44 günlük Vətən müharibəsi Ermənistanın məğlubiyyəti və 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamasına məcbur edilməsi ilə nəticələndi. Azərbaycan özü öz ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən dörd qətnamənin icrasını təmin etdi.

"İşğal dövründə həmin ərazilərdə bütün şəhər və kəndlər, o cümlədən mədəni və dini irs abidələri Ermənistan tərəfindən yerlə yeksan edilib. Bütün müsəlmanlara qarşı təhqir və nifrət zəminində Ermənistan bizim məscidləri dağıtmış və təhqir etmiş, o cümlədən onlardan donuz və inək tövləsi kimi istifadə etmişdir. İşğal dövründə həmin ərazilərdə 67 məsciddən 65-i tamamilə dağıdılmış, digər iki məscidə isə ciddi zərər dəymişdir. Qəbiristanlıqlar da vandalizmə məruz qalmışdır", – deyə İlham Əliyev vurğulayıb.

Azərbaycan Prezidenti işğaldan azad olunmuş Qarabağı və Şərqi Zəngəzuru yaşıl enerji zonası elan etdiyini bildirib.

Bu ilin martında İqtisadi Əməkdaşlıq Təşkilatının onlayn formatda keçirilən XIV Zirvə toplantısında həmkarlarına Zəngəzur dəhlizi haqqında məlumat verdiyini xatırladan Prezident İlham Əliyev deyib: "Bu gün deyə bilərəm ki, Zəngəzur dəhlizi reallığa çevrilir. Bu yeni nəqliyyat infrastrukturu Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin önəmli hissəsinə çevriləcək. Əminəm ki, İƏT-ə üzv ölkələr bu dəhlizdən istifadə edəcəklər".

Prezident çıxışında Azərbaycanda son 18 ildə iqtisadi inkişaf, əldə olunan əsas nailiyyətlər, eləcə də son iki ildə COVİD-19 ilə mübarizə və pandemiyanın iqtisadi proseslərə təsiri barədə də danışıb.

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan İƏT-in fəal üzvüdür: "İƏT-ə üzv dövlətlərlə münasibətlərimiz dostluq və qarşılıqlı hörmətə əsaslanır. Biz, həmçinin beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İƏT-ə üzv dövlətlərlə səmərəli əməkdaşlıq edirik".

Prezident bu ilin martında İqtisadi Əməkdaşlıq Təşkilatının XIV Zirvə toplantısında İƏT-in Tədqiqat Mərkəzinin Nizamnaməsinin imzalandığını qeyd edərək bildirib ki, Azərbaycan ölkəmizdə yerləşəcək Mərkəzin səmərəli fəaliyyətinin təmin edilməsi üçün səylərini əsirgəməyəcək.

Azərbaycan Prezidenti İƏT-ə cari il sədrliyi həyata keçirən Türkmənistanın dövlət başçısı Qurbanqulu Berdiməhəmmədovu uğurlu sədrlik münasibətilə təbrik edib, həmçinin təşkilatda növbəti müddətə sədrliyi üzərinə götürməsi münasibətilə Özbəkistana uğurlar arzu edib.

Qeyd edək ki, İƏT regional iqtisadi əməkdaşlıq formatı kimi hələ 1985-ci ildə İran, Pakistan və Türkiyə tərəfindən yaradılıb. 1992-ci ildə Azərbaycan, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistan İƏT-ə qoşulub və hazırda təşkilatın 10 üzv ölkəsi var. Aşqabad sammitində Əfqanıstandan savayı bütün üzv dövlətlər təmsil olunub.

"Birlikdə gələcəyə" devizi ilə keçirilən sammitin əsas tematikası ortaq hədəfləri müəyyənləşdirmək, ticarət həcmini artırmaq, iqtisadi əlaqələri fəallaşdırmaq, həmçinin koronavirusla mübarizədə səylərin birləşdirilməsi olub.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında bildirib ki, ölkəsinin irəli sürdüyü Xəzərdən keçən Şərq-Qərb Orta dəhliz təşəbbüsü və Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin bu kontekstdəki səylərimizin ən əyani təzahürüdür. Türkiyə Prezidenti regional avtomobil yolu bağlantısını quracaq Zəngəzur dəhlizinin önəmini də vurğulayıb.

Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın Vətən müharibəsindəki Qələbəsinin əhəmiyyətindən danışaraq deyib: "Qardaşımız Azərbaycanın işğal altındakı torpaqlarını azad etməsi bölgədə davamlı sülhün və sabitliyin təmin olunmasının da qapılarını açıb. Azərbaycanın bölgədə rifahın artması üçün ardıcıl həyata keçirdiyi layihələr təqdirəlayiqdir. Bu addımlar bölgədə normallaşdırma cəhdlərini dəstəkləyəcəkdir. Türkiyə olaraq bu prosesdə Azərbaycanın yanında olmaqda davam edəcəyik. Təşkilat olaraq da Azərbaycan ilə tam həmrəylik içərisində olmağımız böyük önəm daşıyır".

Zirvə toplantısında çıxış edən Pakistan Prezidenti Arif Alvi də Azərbaycanın Vətən müharibəsindəki Qələbəsi münasibətilə təbriklərini çatdırıb: "Bu fürsətdən istifadə edib Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və ərazi bütövlüyünün bərpası münasibətilə Prezident İlham Əliyevi bir daha təbrik etmək istərdim".

İran Prezidenti İbrahim Rəisi, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Qazaxıstanın Baş naziri Askar Mamin təşkilat çərçivəsində əməkdaşlığın genişləndirilməsinin, iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsinin vacibliyini vurğulayıb, yeni çağırışlar müstəvisində ortaya çıxan təhlükələrə qarşı birgə mübarizənin zərurətindən danışıblar.

## Brüsseldə Avropa Milli Kitabxanaları Konfransının illik iclası

29–30 noyabr tarixlərində Brüsseldə, Belçika Milli Kitabxanasında CENL – Avropa Milli Kitabxanaları Konfransının illik iclası keçirilib.

İclasda Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov da iştirak edib. Ötən il pandemiya səbəbindən onlayn şəkildə təşkil olunan iclas bu il ənənəvi qaydada gerçəkləşib.

46 ölkədən ümumilikdə 49 milli kitabxananın üzv olduğu CENL-in əsas vəzifəsi vahid informasiya məkanında kitabxanaların birgə və əlaqəli fəaliyyət göstərməsini təmin etməkdən ibarətdir. Azərbaycan Milli Kitabxanası 2005-ci ildən bu beynəlxalq təşkilatın üzvüdür.

Budəfəki iclasda 2020-ci ildə pandemiya səbəbindən onlayn formatda keçirilən 34-cü CENL illik iclasının yekun sənədləri müzakirə olunub və CENL-in illik hesabatı təqdim edilib. Daha sonra CENL-in 2020 və 2021-ci illərə dair maliyyə hesabatları məruzə edilib.

Həmçinin iclasda "Növbəti 4 il üçün CENL və milli kitabxanalar üçün strateji prioritetlər" mövzusunda interaktiv sessiya keçirilib və növbəti il üçün ev sahibi olacaq kitabxananın təqdimatı olub.

2022-ci ildə CENL-in illik iclasına Türkiyə Milli Kitabxanası ev sahibliyi edəcək.




## "Aşıq sənətinin Ələsgər zirvəsi"

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə Aşıq Ələsgərin anadan olmasının 200 illik yubileyinə həsr edilən "Aşıq sənətinin Ələsgər zirvəsi" adlı elmi konfrans keçirilib.

Tədbiri açan AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru akademik İsa Həbibbəyli Aşıq Ələsgərin yaradıcılığı ilə bağlı aparılan tədqiqatlardan danışıb.

Azərbaycan Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlının rəhbərliyi və filologiya üzrə fəlsəfə doktoru, dosent Aynur Xəlilova və filologiya elmləri doktoru, professor Mahmud Allahmanlının iştirakı ilə hazırlanan "Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər" kitabının məziyyətlərinə toxunub.

Professor Məhərrəm Qasımlı bildirib ki, Aşıq Ələsgər yaradıcılığına həm folklor, həm də ədəbiyyat hadisəsi kimi baxmaq olar: "Ustad aşığın yaradıcılığı birbaşa ədəbiyyat nümunələridir. Onun şeirlərini təhlil etdikdə də bunu görmək olar".

"Aşıq Ələsgər: şifahi ifaçılıq ənənəsi və ustad sənətkar fərdiyyəti" mövzusunda çıxış edən akademik Muxtar İmanov bəzi mübahisəli məqamlara aydınlıq gətirib. Onun sözlərinə görə, xalq rəvayətlərində Aşıq Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım və eləcə də Aşıq Ələsgər yazıb-oxuya bilməyən kimi təqdim olunur: "Bunun səbəbi isə xalqın onları sinədəftər sənətkar kimi görməsidir. Lakin Aşıq Ələsgər bir çox şeirlərində özü də ifadə edir ki, bir əlimdə qələmdir, bir əlimdə kağız. Buna bənzər bir çox nümunələr onun yazıb-oxuya bilməsinin sübutudur".

Sonra filologiya üzrə fəlsəfə doktoru, dosent Aynur Xəlilovanın "Aşıq Ələsgərin həyatı və sənəti çağdaş mədəni-tarixi kontekstdə" mövzusunda məruzəsi dinlənilib.

Azərbaycan Aşıqlar Birliyinin nəzdində fəaliyyət göstərən "Çeşmə" folklor qrupu və birliyin sədr müavini Altay Məmmədli Aşıq Ələsgər yaradıcılığından nümunələr səsləndiriblər.

Konfrans bölmə iclası ilə davam etdirilib.

## "Varlığın fraqmentləri"



əvvəli səh. 1-də

Gürcüstan Milli Muzeyinin baş kuratoru (həm də sərginin), Tbilisi Dövlət Universitetinin professoru İrina Koşoridze çıxışı zamanı Milli Xalça Muzeyindən aldığı təəssüratdan heyranlığını ifadə etdi. O, Azərbaycanla birlikdə bir neçə layihənin reallaşmasında iştirak etdiyini dedi: "Nino Kipşidzenin yaradıcılığı dünyanın bir neçə ölkəsində sərgilənib və Bakıda bu işlərin nümayişindən məmnunluğumuzu bildirirəm".

Nino Kipşidze çıxış edərək təşkilatçılara minnətdarlığını bildirdi. Bir neçə dəfə Bakıda olduğunu vurğulayan rəssam sərgiyə və səmimi münasibətə görə təşəkkür etdi.

Qeyd edək ki, rəssam əsasən mənzərə və natürmort janrlarında işləyir. O, həmçinin fiqurlu kompozisiyalar da yaradır.

Xalça Muzeyində "Varlığın fraqmentləri" sərgisi 22 yanvar 2022-ci il tarixinədək davam edəcək.

**Lalə AZƏRİ**

əvvəli səh. 1-də

# İnsanlıq var olduqca Nizami ideyaları da yaşayacaq

## Nizami Gəncəvi Beynəlxalq Forumu başa çatdı

Forumun sonuncu günü – noyabrın 26-da iki panel iclası keçirildi.

***

“Xəmsə” dialoqlarının didaktik rolu” mövzusuna həsr olunan panel AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu Ərəb ölkələri tarixi şöbəsinin müdiri Fərda Əsədovun moderatorluğu ilə gerçəkləşdi.

İtaliyanın Piemonte Universitetinin professoru Stefania Sini “Nizaminin real sözü” adlı məruzəsində qeyd etdi ki, “İskəndərnamə” poemasında şair İskəndərlə Daranın müqayisəsində birincinin ağıl və məntiqini əşyalarla təsvir edərək hökmdarların düşüncələrini obyektlərin simvolik gücü ilə göstərir.

Özbəkistandan professor Bakijon Tukiyev “Əlişir Nəvainin “Xəmsə”sində Nizaminin tərifi” məruzəsini təqdim etdi. Bildirdi ki, Nizaminin “Xəmsə”sinə nəzirə olaraq Nəvainin cəmi üç ildə (1483-1485) ana dilində “Xəmsə” yaratması onun bədii sənətinin zirvəsi hesab olunur. Alim bildirdi ki, XIV-XV əsrlərdə Nizami əsərlərinin özbək dilinə tərcüməsi sahəsində müəyyən təcrübə əldə edilib. XIV əsrin sonlarında Qütbün “Xosrov və Şirin”, XV əsrin əvvəllərində Xarəzminin isə “Sirlər xəzinəsi” poemalarını özbək dilinə tərcümə etməsi Azərbaycan-özbək ədəbi əlaqələrini genişləndirməklə yanaşı, regionda Nizamiyə olan məhəbbəti xeyli artırıb. Əlişir Nəvai də “Xəmsə” yazana qədər sarayda özünün birbaşa nəzarəti altında iki dəfə Nizami “Xəmsə”si əlyazmalarının üzünü köçürtdürüb, 1481-ci ildə üzü köçürülən 45 miniatürlü əlyazma isə onun şəxsi kitabxanasını bəzəyib.

“Əlişir Nəvainin Nizami Gəncəvi “Xəmsə”sinə münasibəti” adlı məruzə ilə çıxış edən Daşkənd Dövlət Universitetinin müəllimi İlyas İsmayılov Nəvainin əksər əsərlərində Nizami haqqında dəyərli fikirlər söylədiyini dedi. Bildirdi ki, Ə.Nəvai “Xəmsə”ni tamamladıqdan 14 il sonra yazdığı “Mühakəmətül-lüğəteyn” (1499) əsərində Nizami yaradıcılığının ona olan təsirini belə açıqlayır: “Xəmsə” pəncəsinə pəncə vurmuşam. Əvvəlcə “Möminlərin heyrəti” bağında təbim güllər açıbdır ki, ona “Sirlər xəzinəsi”indən Şeyx Nizaminin ruhu başıma dürlər saçıbdır”. Lakin Ə.Nəvai Nizaminin yaratdığı söz meydanına girməyin və Nizami ədəbi yolu ilə getməyin çətinliyini və cəsarət tələb etdiyini xüsusi vurğulayır, “Xəmsə” yazmağın böyük məsuliyyət olduğunu nəzərə çatdırır.

Panel iclas diskussiyalarla davam etdi.

***



Forumun sonuncu panelinin mövzusu “Sovet dövründə Nizami tədqiqatları” idi.

Məruzələrə keçməzdən öncə iclasın moderatoru – Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov qeyd etdi ki, sovet dövründə Nizami irsi ilə bağlı aparılan çoxsaylı tədqiqatlar əsasən ideoloji meyarlara söykənirdi. Əksər hallarda Nizami düşüncələri ideoloji tərəfdən yanaşılaraq təqdim edilirdi.

Sonra Tbilisi Dövlət Universitetinin əməkdaşı İrma Ratiani “Sovet və postsovet dövründə Nizami yaradıcılığı gürcü tədqiqatçılığında” adlı məruzəsini təqdim etdi. O, Şota Rustaveli və Nizami Gəncəvi irsinin geniş araşdırılması ilə bağlı gürcü alimlərinin məqalələrindən söz açdı. Bildirdi ki, qədim gürcü çoxcildli ədəbiyyatında yer alan əsərlərdə Nizami adına tez-tez rast gəlinir. Tədqiqatçılar bildirirlər ki, Rustavelinin təsvir etdiyi eşqlə müqayisədə Nizami bu mənada tamam başqa bir dünya yaradır və onun eşqi daha böyükdür.

Mirzə Uluqbəy adına Özbəkistan Dövlət Universitetinin Özbək ədəbiyyatı kafedrasının müdiri Hamidulla Baltabayev Nizami “Xəmsə”sinin özbək ədəbiyyatşünaslığında öyrənilməsindən bəhs etdi. Bildirdi ki, Özbəkistan Nizaminin tədqiqi baxımından öndə olan ölkələrdəndir. Təsadüfi deyil ki, Nizami “Xəmsə”sinin ən qədim variantı Özbəkistan Əlyazmalar Fondundan əldə edilib. Məruzəçi yazıçı-dramaturq Kamil Yaşenə istinadən diqqətə çatdırdı ki, Nizaminin vəfatından illər sonra Orta Asiyanın monqollar tərəfindən işğal olunduğu dövrdə Xarəzmdə naməlum özbək müəllif “Müftah ül-ədl” (“Ədalətin açarı”) adlı bədii əsər yaratmışdı. Bu əsərin əsasını Nizaminin “Şah və iki bayquş” haqqında hekayəti təşkil edirdi. Özbəkistanda müxtəlif zamanlarda çoxaylı elmi mənbələrdə Nizami yaradıcılığı, onun ayrı-ayrı əsərləri haqqında elmi-tənqidi məqalələr, araşdırmalar nəşr olunub. 1940-cı illərdə Nizami və Nəvainin yubiley günləri çərçivəsində bu səpkidə xeyli elmi məqalələr işıq üzü görüb. Özbək ədəbiyyatının klassiki, azərbaycanlı şair, tərcüməçi, ədəbiyyatşünas Maqsud Şeyxzadənin (1908-1967) yetirməsi olan filologiya elmləri doktoru, professor Natan Mallayevin “Nizami Gəncəvinin irsi və onun təlim-tərbiyəvi əhəmiyyəti” adlı monoqrafiyası bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Hazırda Özbəkistanın muzey fondlarında Nizami haqqında 30-a yaxın əlyazma saxlanılır. Bunlardan 12-si “Xəmsə”yə aiddir.

Panelin son məruzəçisi, Özbəkistanın “Darakchi” nəşriyyat evinin direktoru Rustamjon Cabbarovun çıxışı xüsusilə maraqlı oldu. R.Cabbarov Azərbaycan dilində səlis çıxış edərək Nizami irsinə aydın baxışı ilə tədbir iştirakçılarının alqışını qazandı.



***

Diskussiyalardan sonra forumun bağlanışı oldu. Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev çıxış edərək üç gün davam edən foruma qatılan hər kəsə təşəkkürünü bildirdi: “Forumun adından da məlum olduğu kimi, Nizami Gəncəvi nəsillər arasında bir körpüdür. O səbəbdən forumun son günündə gənclərin aktiv iştirakından çox şadıq. Nazirlik olaraq məqsədimiz mədəniyyəti sadəcə, teatr, konsert kimi dar çərçivədə təbliğ etmək deyil, biz mədəniyyətin daha geniş anlamda tanıdılmasının əhəmiyyətli olduğunu qəbul edirik. Mədəniyyət həm də bəşəri dəyərdir. Nizami Gəncəvi də bizim mədəni dəyərimizdir. Nizami Gəncəvi Gəncədən doğan bir günəşdir. Səkkiz əsr keçməsinə baxmayaraq, Nizami öz hikmətləri ilə bu gün də böyük bir coğrafiyaya işıq saçır. Bütün dünya fəlsəfəsi bu günəşdən işıq alır və bu da bizim məsuliyyətimizi artırır. Biz xalq olaraq Nizaminin ideyalarını yaşatmalıyıq. Xalqımızın multikultural dünyagörüşünün formalaşmasında Nizaminin də rolu vardır”.

Forumun əhəmiyyətini yüksək qiymətləndirən Elnur Əliyev bildirdi ki, beynəlxalq tədbir həm də Nizaminin bəşəri şair olduğunu bir daha sübuta yetirdi. Nazirin birinci müavini çıxışının sonunda forumda iştirak edən, dəyərli fikirlərini bölüşən qonaqlara bir daha təşəkkürünü bildirdi: “Gələcəkdə bir daha Nizami Gəncəvi çətiri altında görüşmək arzusu ilə sizlərə uğurlar arzulayıram”.

**Lalə AZƏRİ**

## Fransa portalında Nizami Gəncəvi Beynəlxalq Forumu ilə bağlı yazılar

Fransanın "Musulmans en France" (musulmansenfrance.fr) xəbər portalında 24-26 noyabr tarixində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakıda keçirilən "Nizami Gəncəvi: mədəniyyətlər arasında körpü" mövzusunda beynəlxalq forumla bağlı məqalələr yayımlanıb.

Yazılarda dahi Azərbaycan şairinin 880 illiyinə həsr olunan forumla bağlı geniş məlumat verilir. Diqqətə çatdırılır ki, Nizami Gəncəvi Beynəlxalq Forumunda 15 xarici ölkədən 40-dan çox alim və ekspert iştirak edib, müxtəlif panel müzakirələr, kitab təqdimatı və digər tədbirlər təşkil olunub. Materiallarda həmçinin dahi şairin yaradıcılığı və fəaliyyəti haqqında da ətraflı məlumat verilib.

# Dinlərin maddi-mənəvi irsi və dinlərdə musiqi – Qarabağ konteksti

## Bakıdakı Müqəddəs Məryəm Katolik Kilsəsində konfrans



Noyabrın 29-da Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı ilə Bakıdakı Müqəddəs Məryəm Katolik Kilsəsində "Müxtəlif dinlərin maddi-mənəvi irsi (Qarabağ kontekstində) və dinlərdə musiqi" adlı konfrans keçirilib.

Tədbirdə Azərbaycanda mövcud olan multikultural dəyərlər, konfessiyalararası münasibət, ölkəmizdə qədim tarixə malik tolerantlıq, qarşılıqlı hörmət və anlaşma məsələləri müzakirə olunub.

MEMİM-in direktoru Səadət Xələfbəyli qonaqları salamlayaraq tədbirin əhəmiyyətini vurğulayıb. Bildirib ki, konfransın məqsədi konfessiyalararası əlaqələrin daha da inkişaf etdirilməsinə töhfə verməkdir.

Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının keşişi Jozef Marek deyib ki, dünyada əgər hər şey yerində olsa, qəlbimiz açılar: “İnsan arzuladığı bir yerə çatmaq istəyəndə Allah ona səbir və lazım olan xüsusiyyətləri bəxş edir. Musiqini ifa etmək gözəldir, amma onu ifa edərkən Allahı axtarmaq fərqli bir məsələdir. Belə insanlar məni hər zaman heyran edib”.

Konfransın aktual məsələyə həsr olunduğunu söyləyən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəsi hacı Şahin Həsənli bildirib ki, Azərbaycan tarixində heç zaman dini zəmində münaqişə baş verməyib. Hətta Azərbaycanda müxtəlif xalqların dini icma nümayəndələri Qarabağ müharibəsi zamanı xristian dünyasına müraciət ünvanlayaraq bildiriblər ki, Qarabağ tarixən Azərbaycan ərazisidir. Bu sənət tarix olaraq qalacaq. Ş.Həsənli qeyd edib ki, ruha sirayət edə bilən, insanda mərhəmət hissi aşılayan musiqiyə hər zaman ehtiyac var.

Katolik kilsəsinin apostol prefekturası məlumat şöbəsinin katibi Toral Ağayev vurğulayıb ki, hər bir yaradıcı insan öz qabiliyyətini Allahdan alır. İnsan şüuruna təsir edən ən böyük qüvvə incəsənətdir. Musiqi xristianlıq dinində xüsusi önəm kəsb edir.

Mənəvi Dəyərlərin Təbliği Fondu icraçı direktorunun müavini Hətəm Gülməmmədov bildirib ki, Azərbaycan dünyada tolerantlığın yaşandığı nadir ölkələrdən biridir. Ölkəmizdə tarixən müsəlman, yəhudi, xristian və digər dini icmalar dostluq və əmin-amanlıq şəraitində yaşayıb. Ramazan ayında Çotari kilsəsində xristian dini icma nümayəndələrinin müsəlmanlar üçün iftar süfrəsi açması bir ənənəyə çevrilib. Tolerantlıq dünyada hüquqi məsələ olduğundan qanunla nizamlanır və bu qanunu pozan şəxslər cinayət məsuliyyətinə cəlb olunur. Ancaq Azərbaycanda bu məsələ mənəvi məsələdir. Azərbaycanda tolerantlığın nümunələrindən biri də Bakının mərkəzində qorunan erməni kilsəsidir.

Konfransda Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Dionisi Sveçnikov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi İnformasiya şöbəsinin müdiri Yadigar Məmmədli, İslam Universiteti İctimai elmlər kafedrasının müdiri Elvin Talışinski, müstəqil araşdırmaçı-jurnalist, səyyah Ağa Mehdiyevin çıxışları da dinlənilib.

Tədbirin bədii hissəsində dini musiqilər səsləndirilib.

# Qədim Musiqi Alətləri Ansamblının 25 illiyi qeyd edilib

Noyabrın 29-da Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin Qədim Musiqi Alətləri Ansamblının 25 illiyinə həsr olunmuş tədbir keçirilib.

Tədbiri Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova açaraq qonaqları salamlayıb.

Sonra söz Mədəniyyət Nazirliyi Muzey, qalereya və sərgilər şöbəsinin sektor müdiri Altun Mikayıllıya verilib. O, ansamblın kollektivini əlamətdar ildönümü münasibətilə təbrik edərək, xoş sözlərini çatdırıb, yeni yaradıcılıq uğurları arzulayıb.

Musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı ansamblın fəaliyyəti haqqında ətraflı danışıb. Onun çıxışı ansamblın 25 illik fəaliyyəti ilə bağlı muzeyin hazırladığı slayd-şou ilə müşayiət olunub.

Daha sonra Azərbaycan Milli Konservatoriyasının professoru, sənətşünaslıq üzrə elmlər doktoru Abbasqulu Nəcəfzadə, Bakı Musiqi Akademiyasının dosenti,



sənətşünaslıq üzrə fəlsəfə doktoru Maya Qafarova, Azərbaycan Dillər Universitetinin professoru Həbib Zərbəliyev, Müdafiə Nazirliyinin nümayəndəsi, Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani çıxış ediblər.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin nümayəndəsi Çingiz İbrahimov çıxış edərək, komitənin sədri Cəmilə Səttarovanın ansambla təbriklərini çatdırıb və musiqiçilərə fəxri fərman və pul mükafatları təqdim edib.

Tədbirin bədii hissəsində Qədim Musiqi Alətləri Ansamblının (bədii rəhbər – Xalq artisti Munis Şərifov) ifasında konsert proqramı təqdim edilib.

## “Yaradanlar” filmi təqdim olunacaq

Dekabrın 3-də Nizami Kino Mərkəzində rejissor Şamil Əliyevin "Yaradanlar" sənədli filminin təqdimatı keçiriləcək. İl ərzində müxtəlif beynəlxalq festivallarda iştirak edərək mükafata layiq görülmüş film ölkəmizdə ilk dəfə nümayiş olunacaq.

Azərbaycanın müasir memarlığının banilərindən olan Mikayıl Hüseynov və Sadıq Dadaşovun həyat və yaradıcılığından bəhs edən film Memarlar İttifaqının təşəbbüsü, Mədəniyyət Nazirliyinin sifarişi ilə 2020-ci ildə “Salnaməfilm” studiyasında istehsal olunub. Filmin ideya müəllifi Elbay Qasımzadə, ssenari müəllifi Natiq Rəsulzadə, təsvir rejissoru Rüfət Süleymanov, bəstəkarı Azər Hacıəsgərli, prodüseri Nazim Hüseynovdur.

Filmdə görkəmli memarlar Mikayıl Hüseynov və Sadıq Dadaşovun həyat və yaradıcılığı fonunda XX əsrdə kommunist ideologiyasının Azərbaycan mədəni irsinə, əxlaqına vurduğu zərbə diqqətə çatdırılır. 1937-ci il repressiyasında onların qohumlarından olan ziyalıların əksəriyyəti məhv edilib. Mikayıl Hüseynov və Sadıq Dadaşov ömürlərinin bir hissəsini qorxu və mənəvi sıxıntılarla yaşamağa məcbur olublar. Filmdə o da vurğulanır ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə ziyalıları rejimin təqiblərindən qoruyaraq onların yaşayıb-yaratması üçün qayğısını əsirgəməyib.

## Tammetrajlı bədii film layihələrinə dəstək məqsədilə müsabiqə

Mədəniyyət Nazirliyi milli kinematoqrafiya sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərə dəstək olmaq, bu istiqamətdə çalışan müstəqil prodüser mərkəzlərinin və istehsal şirkətlərinin fəaliyyətini stimullaşdırmaq, milli-mənəvi və ümumbəşəri dəyərləri filmlərlə təbliğ etmək, kino peşəkarlarının təcrübələrini daha da artırmaq məqsədilə "Tammetrajlı bədii film layihələrinə dəstək – 2022" müsabiqəsini elan edib.

Müsabiqə tammetrajlı bədii film kateqoriyasında keçirilir. Layihə üzrə çəkiləcək filmlərin xronometrajı 52 dəqiqədən az olmamalıdır. Müsabiqə sərbəst mövzuda keçirilir. Layihənin istənilən mərhələsində – ssenarinin inkişaf etdirilməsi, filmin çəkilişinə hazırlıq və çəkiliş prosesi, həmçinin post prodakşn və distribusiya mərhələlərinə dəstək nəzərdə tutulur.

Müsabiqənin ümumi dəstək fondu 300 min manat təşkil edir. Qalib film layihələrinin maliyyələşdirilməsi üçün hər filmə ən çox 100 min manata qədər maliyyə dəstəyi göstərilə bilər.

Müsabiqənin mütəmadi olaraq hər il keçirilməsi nəzərdə tutulur.

## Daşkənddə keçmiş sovet ölkələri gənc teatr xadimlərinin forumu

Noyabrın 30-da Özbəkistanın paytaxtı Daşkənddə IV Gənclər Teatr Forumu işə başlayıb. Forum keçmiş sovet məkanı ölkələrini – hazırda MDB üzvü olan ölkələri, sovet məkanını otuz il əvvəl tərk edən və iyirmi ilə yaxındır Avropa Birliyində yer alan Baltikyanı ölkələr, həmçinin MDB-dən də faktiki olaraq çıxan, amma yenə postsovet sənət məkanına yaxın olan Gürcüstan və Ukraynanı əhatə edir.

Dekabrın 7-dək davam edəcək forumun məqsədi bu ölkələrin gənc teatr xadimləri – rejissorlar, dramaturqlar, teatr rəssamları, teatr tənqidçiləri və s. arasında yaradıcılıq əlaqələrinin möhkəmləndirilməsi, təcrübə və fikir mübadiləsinə zəmin yaratmaqdır.

Forumda Azərbaycandan da geniş nümayəndə heyəti iştirak edir. Forumun maarifləndirici proqramında ölkəmizi təmsil edən teatr rəssamları, dramaturqlar, tənqidçilər də iştirak edəcək, ustad dərsləri və təqdimatlar təşkil olunacaq.

Akademik Milli Dram Teatrı Daşkənddəki IV Gənclər Teatr Forumunda repertuarından iki – “Manqurt” (Çingiz Aytmatov; rejissoru İzamə Babayeva) və “Bir, iki – bizimki!” (Kamal Abdulla; quruluşçu rejissoru Əlif Cahangirli) tamaşalarını da təqdim edəcək.

№89 (1866)
1 dekabr 2021
www.medeniyyet.az

# "Nizami Gəncəvi dünya mədəniyyətinin parlaq ulduzudur"

## Beynəlxalq forumdan təəssürat

Xəbər verdiyimiz kimi, 24–26 noyabr tarixində Bakıda Nizami Gəncəvi Beynəlxalq Forumu keçirildi. Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Bakı Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə reallaşan forum "Nizami Gəncəvi: mədəniyyətlər arasında körpü" mövzusuna həsr olunmuşdu.



Forumda 15 ölkədən 40-dan çox alim və ekspert, eləcə də dövlət rəsmiləri, ali təhsil müəssisələrinin rəhbərləri, beynəlxalq təşkilatlar və diplomatik korpusun nümayəndələri iştirak edirdi. Beynəlxalq tədbirin bir sıra qonaqları ilə həmsöhbət olub, təəssüratlarını öyrəndik.

Macarıstanın Karoli Gaspar Universitetinin professoru **Miklos Sarkozi**:

– Bizi bir araya toplayan səbəb Nizami Gəncəvinin özündən sonra qoyduğu çoxşaxəli və dərin yaradıcılıq mirasıdır. Nizami təkcə yaratdığı möhtəşəm şeir nümunələri ilə tanınmır, onun elmi və fəlsəfi fikirləri regionun müxtəlif xalqları arasında gələcəkdə dialoq qurmaq üçün platforma yaratmaq baxımından əhəmiyyətlidir. Çünki şairin yaradıcılığı humanizm və tolerantlıq kimi ümumbəşəri dəyərləri təbliğ edir. Ona görə də mən bu forumu yüksək qiymətləndirirəm. Onu da qeyd edim ki, Bakıya ilk səfərim eyni zamanda dahi şair və mütəfəkkir Nizami Gəncəvinin irsinə və dünya ədəbiyyatına təsirinə həsr olunmuş belə bir mühüm beynəlxalq tədbirdə iştirak etmək mənim üçün böyük şərəfdir. Nizami Gəncəvi dünya ədəbiyyatına və mədəniyyətinə böyük təsiri olub.

İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (İRCİCA) Baş katibi, professor **Mahmut Erol Kılıç**:

– Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən Şərqin ən böyük mütəfəkkirlərindən biri olan Nizami Gəncəvi ilə bağlı beynəlxalq forumun təşkil edilməsi çox mühüm hadisədir. Çünki onun yazdığı əsərlər yalnız Azərbaycanda deyil, Türkiyədə, Hindistanda, Pakistanda və eləcə də dünya ədəbiyyatında qlobal miqyaslı universal dəyərdir. Nizami bu gün də dünya ədəbi-mədəni və ictimai-fəlsəfi fikrində öz mövqeyi olan qlobal əhəmiyyətli fenomenal şəxsiyyətlərdən biridir. Dünya ədəbi-elmi fikrində böyük mütəfəkkirin sənətinə olan maraq heç vaxt azalmır, zaman-zaman ölməz əsərləri istər Qərb, istərsə də Şərq dillərinə tərcümə edilərək bəşəriyyətin mənəvi kamilləşməsi prosesində öz rolunu oynayır.

Rusiya Milli Kitabxanası Əlyazmalar şöbəsinin böyük elmi işçisi **Olqa Yastrebova**:

– Çalışdığım şöbədə əməkdaşlarımızla ədəbiyyatın ölkəmizdə az tanınan Şərq fondlarının təbliğinə xüsusi diqqət yetirirk. Bu məqsədlə elektron sərgilər və tematik bölmələr formatında kitabxananın saytında təqdimatlar edirik. "Müsəlman kitabının tərtibatı sənəti" və "Sözün sehrbazı" bölmələri Azərbaycanın dahi şairi Nizami Gəncəvinin həyat və yaradıcılığına həsr edilib. Nizami əsərlərinin miniatürləri və əlyazmalarının siyahısı bacarıqlı sənətkarlar tərəfindən yaradılıb və sadə adamlardan hökmdarlara, əyanlaradək bütün təbəqələr arasında böyük populyarlıq qazanıb. Biz də öz növbəmizdə həmin əsərlərin rus oxucusuna layiqincə təqdim olunması üçün əlimizdən gələni edirik. Nizaminin əsərləri beynəlxalq xarakterlidir. Şair öz nəsihətlərini və müdrikliyini təkcə Gəncə sakinlərinə deyil, bütün bəşəriyyətə ünvanlayıb. Çalışmalıyıq ki, bu gün bu bəşəri ideyaları bütün dünyada təbliğ edərək sülhə və əmin-amanlığa nail olaq.

"LiFFt" nəşriyyatının (Rusiya) baş redaktoru **Marqarita Almuhammedova**:

– Azərbaycana belə gözəl bir təşəbbüsə görə minnətdarlığımı bildirirəm. Müxtəlif ölkələrdən alim və tədqiqatçıları bir araya gətirən forum Nizami işığında bəşəri ideyaları təbliğ etmək baxımından diqqətəlayiq tədbirdir. 2019-cu ildə biz Bakıda Avrasiya Ədəbiyyat Festivalı keçirdik. Həmin festivalda, qismən də olsa, Nizami Gəncəvi mövzusu öz əksini tapmışdı. Düşünürəm ki, dünya ölkələri Nizami ideyalarını rəhbər tutsa, mükəmməl bir cəmiyyətin qurulmasına nail olar. Çünki Nizami öz əsərlərində ideal bir cəmiyyətin yaranmasını təbliğ edib. Gələn il Misirdə Nizami Gəncəviyə həsr olunacaq "Keçmişdən gələn gələcəyin insanı" mövzusunda forum təşkil olunacaq. Biz Nizami Gəncəvi ilə bağlı olan tədbirlərə hər zaman qatılırıq, çünki Nizami həm də bizim mədəniyyətimizin bir hissəsidir".

Milli İqtisadiyyat və Dövlət İdarəçilik Akademiyasının (Rusiya) professoru **Nizami Məmmədov**:

– Bu gün qlobal düşüncə vacib bir amilə çevrilib. Dünya sivilizasiyası mövcud olduqca insanlar hər zaman dahi alim və mütəfəkkirlərin fikrinə müraciət edəcək. Hər bir iqtisadi və ya siyasi məsələni həll etmək üçün qlobal düşüncəyə müraciət edirik. Nizaminin cəmiyyət haqqında düşüncələri bu gün də aktualdır. Əvvəlcə Nizami Orta Şərqə, sonradan isə Avropa xalqlarına təsir edib.

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, professor **Fuad Məmmədov**:

– Nizami forumunu çox yüksək qiymətləndirirəm. Beynəlxalq səviyyəli bu tədbir çox mükəmməl təşkil olunub. Bu onu göstərir ki, Nizami Gəncəvi təkcə Azərbaycan mədəniyyətinin deyil, dünya mədəniyyətinin parlaq ulduzudur. Onun dünya sivilizasiyasına töhfələri bu forumda müzakirə olunacaq, bir daha dünyaya bəyan ediləcək. Nizamini çox zaman şair və filosof kimi təhlil edirlər. Amma mən onu daha çox dahi mütəfəkkir kimi dəyərləndirir, böyük mənəvi mədəniyyətin yaradıcısı kimi qəbul edirəm. Nizaminin müdrikliyi bu gün də realdır. Əgər biz Nizaminin ideyalarını dərindən dərk etsək, qiymətləndirsək, başa düşəcəyik ki, dünyanın xilası yüksək mənəvi mədəniyyətdədir".

**Lalə AZƏRİ**

# Gəncədə kitab bayramı

əvvəli səh. 1-də

Tədbir iştirakçıları əvvəlcə Nizami Gəncəvinin məqbərəsini ziyarət ediblər.

Açılış mərasimində Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Gəncə Dövlət Dram Teatrının aktyoru, Xalq artisti Alim Məmmədov Nizami obrazında tədbir iştirakçılarını salamlayıb.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxışında qeyd edib ki, bu gün kitaba və mütaliəyə olan marağın artırılması olduqca vacibdir və bu baxımdan belə tədbirlərin təşkili böyük əhəmiyyət daşıyır.

ANİB-in sədri Şamil Sadiq "Nizami Gəncəvi İli"nə həsr olunan sərgi haqqında məlumat verib.

Gəncə RMİ-nin rəisi Vasif Cənnətov mədəniyyət naziri Anar Kərimovun adından sərgi iştirakçılarını salamlayıb. Bildirib ki, I Gəncə Kitab Sərgisinin açılış mərasimi Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə noyabrın 15-dən 26-dək keçirilən Nizami Gəncəvi Beynəlxalq Festivalının son gününə təsadüf edir. O, kitab sərgisinin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.



Gəncə İctimai İştirakçılıq Məclisinin sədri Müzadil Həsənov, Xalq şairi, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı və başqa çıxış edənlər "Nizami ili"ndə şairin yurdunda keçirilən kitab sərgisinin yerli kitabsevərlər üçün bayram olduğunu bildiriblər.

Daha sonra qonaqlar sərgi ilə tanış olublar. Üç gün davam edən sərgidə ölkənin 30-dan artıq nəşriyyatı və 10-dan çox kitab evi tərəfindən çap məhsulları təqdim olunub. Nəşrlərə 50 faizədək endirim tətbiq edilib, müəlliflərin iştirakı ilə təqdimatlar, imza mərasimləri, uşaqlar üçün "nağıl saat"ları, rəssamların, müxtəlif sənət nümayəndələrinin əsərlərindən ibarət sərgi və musiqi proqramları keçirilib.

Sərgidə Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə həyata keçirdiyi "Qarabağa kitabla gedirik" layihəsinin stendində isə işğaldan azad edilmiş ərazilərimizdə yaradılacaq kitabxana fondlarına dəstək məqsədilə kitablar toplanıb.

Həmçinin sərgi çərçivəsində noyabrın 27-də Gəncə Dövlət Kukla Teatrı aktyorlarının Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından "Xeyir və Şər" əhvalatı əsasında hazırladığı tamaşa nümayiş olunub. Noyabrın 28-də – sərginin son günündə isə teatr Vətən müharibəsi şəhid və qazilərinin övladları üçün uşaq yazarı Tofiq Kərimin "Quyruqsuz ulağın sərgüzəştləri" əsəri əsasında eyniadlı tamaşanı təqdim edib.

**NURƏDDİN**

# Vətən müharibəsinin şəhid pilotları ilə bağlı sərgi

Azərbaycan İstiqlal Muzeyində Vətən müharibəsi şəhidlərinin xatirəsinin anılması və vətənpərvərliyin təbliği məqsədilə həyata keçirilən "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihə davam edir. Layihə çərçivəsində "Şahinlər" adlı növbəti tədbir-sərgi keçirilib.

Tədbirdə 44 günlük müharibədə şücaət göstərərək həlak olmuş hərbi pilotlar – polkovnik-leytenant, Vətən Müharibəsi Qəhrəmanı Ramiz Qasımov, mayor Abbas Qasımov, baş leytenant Xalid Gözəlov haqqında söhbət açılıb.

Sonra iştirakçılar sərgi ilə tanış olublar. Sərgidə şəhidlərimizin həyatının müxtəlif illərinə, xidməti fəaliyyətinə həsr olunan fotoşəkillər və şəxsi əşyaları nümayiş olunub.

Tədbirdə şəhid ailələri, Səbail rayonu Gənclər və İdman İdarəsinin əməkdaşı və fəal gəncləri, Dövlət Sərhəd Xidmətinin kursantları, "ASAN" könüllüləri iştirak edib.

Sərgi dekabrın 2-dək davam edəcək.



# Bölgələrdə müxtəlif səpkili tədbirlər



Ağcabədi RMİ Ağdam rayon Heydər Əliyev Mərkəzində ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş kitab sərgisi təşkil edilib. Sərgidə böyük siyasətçinin dövlətçilik fəaliyyəti əks etdirən nəşrlər nümayiş olunub.

Sumqayıt RMİ Sumqayıt Heydər Əliyev Mərkəzində şəhərdə yaşayan şəhid və qazi övladlarından ibarət "Əmanət" xor kollektivinin təqdimatı keçirilib. Milli Məclisin deputatları Hicran Hüseynova, Müşfiq Məmmədli, Emin Hacıyev və regional idarənin rəisi Rəşad Əliyevin də iştirak etdiyi tədbirdə yeni yaradılan kollektivin ifasında vətənpərvər ruhlu mahnılar səsləndirilib.

Sabirabad RMİ-nin təşkilatçılığı ilə Sabirabad rayon Mədəniyyət Mərkəzində "Şuşa, sən azadsan!" sənədli filminin nümayişi keçirilib. Nümayişdən öncə idarənin rəisi Fərid Qurbanzadə, "Azərbaycan Bayrağı" ordeni və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuş polkovnik-leytenant Məmmədbağır Eyyubov və digər qonaqlar çıxış edərək Vətən müharibəsində qazanılan Qələbə haqqında danışıblar.

İsmayıllı RMİ Şamaxı rayon Mirzə Ələkbər Sabirin Ev-Muzeyində tənqidçi, ədəbiyyatşünas Əli Nazimin (1906–1941) anadan olmasının 115 illiyi münasibətilə tədbir keçirilib. Əli Nazimin həyat və yaradıcılığı haqqında məlumat verilib.

Lənkəran RMİ Lənkəran şəhər Mədəniyyət Mərkəzində Vətən müharibəsinə həsr olunmuş "Zəfər yolu" adlı tədbir keçirilib. Tədbirdə şəhidlərimizə həsr edilmiş şeirlər səsləndirilib. Həmçinin Separadi kənd Folklor evinin "Nənələr" folklor kollektivi, Mədəniyyət Mərkəzinin "Babalar" xor və rəqs qrupu, Şağlaser kənd Sənətkarlıq evinin özfəaliyyət kollektivi rəngarəng musiqi nömrələri ilə çıxış ediblər.

Gəncə RMİ Gəncə şəhər MKS-nin 8 saylı filialının əməkdaşları Vətən müharibəsi qaziləri Yusif Bağırov və Elşən Nağıyevlə görüş keçirib.



Ağstafa RMİ Qazax Dövlət Rəsm Qalereyasında Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə sərgi təşkil olunub.

Ağstafa və Gəncə RMİ-lərin tabeliyində fəaliyyət göstərən bir sıra mədəniyyət müəssisələrində Vətən müharibəsində Kəlbəcər rayonunun işğaldan azad olunmasının (25 noyabr) birinci ildönümü münasibətilə tədbirlər təşkil olunub.

Kürdəmir RMİ Beyləqan Rayon Tarix-Diyarşünaslıq Muzeyində Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr olunmuş "Zəfər yolunun çıraqları" adlı sərgi təşkil edilib. Sərgidə Beyləqan şəhidləri İbrahim Əsgərov, Hikmət Abbaslı, Elvin İsmayılov, Nurlan Allahverdiyev, Qara Nəsirov, Nicat Məmmədov, Şahin Hüseynli və Zaur Əsədzadənin fotoşəkilləri, hərbi və mülki geyimləri, şəxsi əşyaları nümayiş olunub.

# "Ələsgərəm, hər elmdən halıyam..."

Sumqayıt RMİ Sumqayıt Dövlət Rəsm Qalereyası, şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə Aşıq Ələsgərin 200 illiyi münasibətilə "Deyilən söz yadigardır" adlı sərgi təşkil edilib.



Xaçmaz Regional Mədəniyyət İdarəsi (RMİ) Quba rayon MKS-nin Mərkəzi Kitabxanası və rayon Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə böyük saz-söz ustadının 200 illik yubileyinə həsr olunan "Aşıq Ələsgər poeziyasında saf məhəbbətin tərənnümü" adlı tədbir keçirilib. Musiqi məktəbinin müəllimi Elnur Qubatovun ifasında saz havaları səsləndirilib. Quba şəhər Tələt Mikayılov adına 5 saylı tam orta məktəbin şagirdlərinin Dədə Ələsgərin qoşmaları əsasında hazırladıqları kompozisiya maraqla qarşılanıb.

Gəncə RMİ Samux rayon MKS-də "Ələsgərəm, hər elmdən halıyam" adlı tədbir təşkil olunub. Samux şəhər 3 saylı tam orta məktəbin 10-cu sinif şagirdləri "Aşıq Ələsgər" və Dəli Alı" dastan-rəvayətindən parça və "Ustadınam, Ceyran" şeirini söyləyiblər.




Şəki RMİ M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzində "Aşıq Ələsgər – 200" adlı tədbir keçirilib. Aşığın sözlərinə bəstələnmiş mahnılar ifa olunub.

Kürdəmir RMİ Xocavənd rayon Mədəniyyət evində təşkil olunan "Azərbaycan aşıq sənətinin zirvəsi" adlı tədbirdə Aşıq Ələsgərin şeirləri əsasında hazırlanan bədii kompozisiya təqdim edilib.

Şəmkir RMİ Daşkəsən rayon Uşaq incəsənət məktəbində də qüdrətli söz ustadının 200 illik yubileyi münasibətilə tədbir keçirilib.

**Hazırladı: N.MƏMMƏDLİ**

# "Şuşa fatehi" kompozisiyası maraqla qarşılanıb

Masallı RMİ Masallı rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrı "Şuşa fatehi" adlı tamaşa-kompozisiyanı nümayiş etdirib. Yazıçı-publisist Nurəddin Ədiloğlunun Masallı şəhidlərindən bəhs edən kitabı əsasında səhnələşdirilən tamaşa Vətən müharibəsi şəhidi Rafail Hüseynova ithaf olunub.




RMİ-nin rəisi Bəxtiyar Qılıncov, rayon rəhbərliyi, şəhid ailələri, yerli ziyalılar və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi mərasimdə əvvəlcə şəhid R.Hüseynovun şəxsi əşyalarından ibarət sərgiyə baxış keçirilib. Şəhidin döyüşlər zamanı çəkilmiş həvəskar videokadrları maraq və həyəcanla izlənilib.

Sonra tamaşa-kompozisiya təqdim edilib. Hadisələr Şuşa şəhəri uğrunda həlledici döyüşlərə hazırlıq fonunda cərəyan edir. Şeir kompozisiyalarında müqəddəs şəhidlik zirvəsi vəsf edilib, Vətən övladlarının şücaəti poetik boyalarla ifadə olunub.

Xalq teatrının əməkdaşları Cəmaləddin Əliyev, Elsevər Əliyev və Ruslan Zahidovun birgə quruluş verdiyi tamaşada rolları teatrın kollektivi ilə yanaşı, Masallı Dövlət Regional Kollecinin tələbələri ifa edib.

# Lənkəran teatrı Biləsuvarda

Lənkəran Dövlət Dram Teatrının truppası Biləsuvarda qastrol səfərində olub. Teatrın aktyorları Biləsuvar RMİ Biləsuvar şəhər Mədəniyyət evinin səhnəsində Cəfər Cabbarlının "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş" pyesinin tamaşasını nümayiş etdiriblər. Tamaşaya Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov quruluş verib.



Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, idarə, müəssisə və təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələrinin maraqla izlədiyi tamaşada rolları Aynur Əhmədova, Səyad Əliyev, Xalq artisti Qabil Quliyev, Əməkdar artist Sucəddin Mirzəyev, Qızılgül Quliyeva, Əbülfəz Axundov, Tərlan Abdullayev, Emin Fərzullayev, Miraslan Ağayev, Təranə Fərəcova və Amil İbrahimli canlandırıblar.

# Tahir Salahovun xatirəsi anılıb

## Sənətkarın doğum günü onun dünyadan köçməsindən sonra ilk dəfə qeyd edilib

Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahovun (1928–2021) doğum günü onun dünyadan köçməsindən sonra ilk dəfə, xatirələr işığında qeyd edilib.





Noyabrın 29-da "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda yerləşən Tahir Salahovun Ev-Muzeyində tədbir təşkil olunub. Sənətkar bu evi içindəki əsərlərlə birlikdə hələ sağlığında muzey kimi dövlətə bağışlayıb.

Muzeyin direktoru Səadət Mirzəyeva tədbiri açaraq Tahir Salahovun ömür yolundan, yaratdığı dəyərli sənət incilərindən söz açıb. Bildirib ki, 1928-ci il noyabrın 29-da anadan olan Tahir Salahov V.İ.Surikov adına Moskva Dövlət İncəsənət İnstitutunu rəssam–nəqqaş peşəsi üzrə bitirib. Sənətkar 20 il Azərbaycan Rəssamlıq Atelyesinə rəhbərlik edib, 1980–1992-ci illərdə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunun professoru, Rəssamlıq və kompozisiya kafedrasının müdiri olub. Həmçinin keçmiş SSRİ, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti olub, bir çox dövlət təltiflərinə, SSRİ Dövlət mükafatına, Azərbaycanın və Rusiyanın Dövlət mükafatlarına, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb.

Ev-muzeyin yaradılmasından danışan Səadət Mirzəyeva bildirib ki, muzeydə Tahir Salahovun Azərbaycan dövlətinə bağışladığı rəsm əsərlərindən və şəxsi arxivindən ibarət kolleksiya nümayiş olunur. Doqquz il əvvəl Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən yaradılmış ev-muzey öz qapılarını ictimaiyyət üçün açaraq İçərişəhərin əsas incəsənət və mədəniyyət mərkəzlərindən birinə çevrilib.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri Əsgər Ələkbərov bildirib ki, Tahir Salahov nəinki Azərbaycanda və Sovet İttifaqında, bütün dünyada müxtəlif xalqlar arasında mədəniyyət və dostluq körpüsünü təcəssüm etdirirdi. "Onun Vətənə sevgisi Abşeronun əsrarəngiz gözəlliklərini və neft mədənlərini tərənnüm edən əsərlərdə, ən əsası isə orada yaşayıb-yaratmış insanların obrazlarında yaşayır. Həmin obrazlar onun həyatda gördüyü insanlar idi. Təsadüfi deyil ki, Tahir Salahovun rəsmlərinin əksəriyyəti dərin avtobioqrafik məna daşıyır", – deyə Ə.Ələkbərov vurğulayıb.

Rəssamın yaradıcılığından söz açan Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar xatirələrini bölüşüb. Vurğulayıb ki, bənzərsiz yaradıcılığı ilə zəngin mədəniyyət salnaməmizdə yeni səhifələr açan Tahir Salahovun mövzu, forma, janr əlvanlığı və estetik kamilliyi ilə seçilən əcazkar rəsmləri ülvi bəşəri dəyərlər və ali məqsədlər naminə humanist fikirləri təlqin edir.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova bildirib ki, Tahir Salahov hamımız üçün əziz insandır: "O, dünya miqyasında tanınan görkəmli rəssam olmaqla yanaşı, həm də əsl ziyalı idi. Dünyanın bir sıra muzeylərində sərgiləri keçirilib. Tahir Salahov həmişə böyük hörmətlə anılacaq".

Xalq rəssamları Fuad Salayev, Səlhab Məmmədov, sənətkarın bacısı, Əməkdar mədəniyyət işçisi Zərifə Salahova və başqaları çıxış edərək ürək sözlərini bölüşüblər. Qeyd edilib ki, Tahir Salahovun Azərbaycan rəngkarlığının inkişafında bütöv bir dövrü təşkil edən əsərləri bu gün dünyanın mötəbər muzeylərində sərgilənir. Onun tabloları təkcə Azərbaycan incəsənətinin deyil, dünya təsviri sənətinin inciləri sırasındadır. Çoxşaxəli yaradıcılığa malik rəssamın əsərləri heyrətamiz xüsusiyyətlərə malikdir.

Tahir Salahov həm də Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirib. Böyük sənətkar haqlı olaraq təsviri incəsənətin klassiki və bütöv bir üslubun ("sərt üslub") banilərindən biri hesab edilir.

Tədbir çərçivəsində publisist, musiqişünas Raya Abbasovanın Tahir Salahovun həyat və fəaliyyətindən bəhs edən "Dialoq" kitabının təqdimatı keçirilib. Kitab haqqında məlumat verən müəllif deyib: "2000-ci illərin əvvəlində mən Tahir Salahovdan ilk müsahibə aldım. Sonradan dəfələrlə görüşdük. Tahir Salahovun 90 illiyinə həsr edilmiş kitab üzərində işləmək mənə təklif olunanda məmnuniyyətlə razılıq verdim".

Tədbirdə rəssam haqqında videoçarx nümayiş olunub.

# "Bir rəssamın portreti"

## Mirnadir Zeynalovun xatirəsinə həsr olunan filmin təqdimatı

Noyabrın 28-də Nizami Kino Mərkəzində Xalq rəssamı Mirnadir Zeynalovun (1942-2021) xatirəsinə həsr olunmuş "Bir rəssamın portreti" sənədli filminin premyerası keçirilib. Təqdimatda sənət adamları, rəssamın dostları və ailə üzvləri iştirak ediblər.

Tədbirdə çıxış edən filmin təşəbbüskarı və ssenari müəllifi, Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova deyib: "Ekran əsəri böyük sənətkar və gözəl insan Mirnadir Zeynalov haqqında ölümündən iki ay əvvəl lentə alınıb. Onunla filmin montajının ilk variantında birgə işlədik. Əfsus ki, filmin hazır, son versiyanı görmək rəssama qismət olmadı".

Daha sonra rəssamın emalatxanasında lentə alınan sənədli ekran əsəri təqdim olunub.

Bakı Abadlıq Xidmətinin maliyyə dəstəyi ilə istehsal olunan filmin ssenari müəllifi və prodüseri Ş.Məlikova, rejissoru Mübariz Nağıyevdir.

Qeyd edək ki, noyabrın 17-də YARAT Müasir İncəsənət Məkanında fırça ustasının "Mistik ruhun ömrü" adlı retrospektiv sərgisi açılıb. 2022-ci ilin aprel ayına qədər davam edəcək sərginin ziyarətçiləri ekspozisiya zalında Xalq rəssamı haqqında bu sənədli filmi də izləyə bilərlər.

**LALƏ**

# "Koroğlu" operası nümayiş olunub

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Üzeyir Hacıbəylinin "Koroğlu" operası nümayiş olunub.



Səhnə əsərində Koroğlu obrazını Əməkdar artist Ramil Qasımov canlandırıb. Digər rolları teatrın aparıcı solistləri – Xalq artistləri Əli Əsgərov (İbrahim xan), Əkrəm Poladov (Alı kişi), Fidan Hacıyeva (Xanəndə qız), Əməkdar artistlər İlahə Əfəndiyeva (Nigar), Cahangir Qurbanov (Həsən xan), Tural Ağasıyev (Həmzə bəy), Əliəhməd İbrahimov (Təlxək), Mahir Tağızadə (Ehsan paşa) və başqaları ifa edib.

Tamaşanı Əməkdar artist, dirijorların beynəlxalq müsabiqələrinin laureatı Əyyub Quliyev idarə edib.

Üzeyir Hacıbəyli yaradıcılığının zirvəsi və milli musiqi sənətinin parlaq səhifəsi olan "Koroğlu" operası ilk dəfə 1937-ci il aprelin 30-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulub. Beş pərdədən ibarət operanın librettosunu Heydər İsmayılov və Məmməd Səid Ordubadi yazıblar.

# Sumqayıt Dövlət Dram Teatrında premyera

Sumqayıt Dövlət Dram Teatrı kiçikyaşlı izləyicilər üçün hazırladığı "Göyçək Fatma" tamaşasını təqdim edib.

Nümayişdən öncə teatrın direktor müavini, Əməkdar artist Vidadi Məmmədov çıxış edərək balaca tamaşaçıları salamlayıb. Qeyd edib ki, Sumqayıt teatrı hər zaman kiçikyaşlı tamaşaçılarını düşünərək onların asudə vaxtlarının xoş keçməsi, eyni zamanda mənən zənginləşməsi üçün tamaşalar hazırlayır.

Uşaqların böyük maraqla qarşıladığı səhnə əsərinə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının rejissoru Gülnar Hacıyeva quruluş verib. Tamaşanın quruluşçu rəssamı Elşən Sərxanoğlu, rəqslərin quruluş müəllifi Rusiya Ali Teatr Məktəbinin məzunu Vüsal Mehrəliyevdir. Rollarda Aynur Hümmətova, Dağlar Rüstəmov, Sevda Hüseynova, Gülnarə Qədirova, Mətanət Əmrullayeva, Yeganə Məmmədəliyeva, Elmir Mehdiyev, Kamran Muradlı, İlqar



İbrahimov, Rövşad İlyasov, Ceyhun Məhərrəmov, Şəmistan Süleymanlı, Füzuli Qərənizadə, İradə Zeynalova çıxış edirlər.

# Köhnə evdə təzə arzular



Otuz ilə yaxın bir müddətdə didərginlik yaşayan, əslində Ağdamda ola-ola doğma ocağından uzaq düşən Əbdürrəhim bəy Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı da bu gün tarixi Zəfərin xalqımıza bəxş etdiyi qüruru yaşayır. İşğaldan sonra Ağdam teatrından geriyə qalan yalnız dörd sütundur. Qürurlu, sarsılmaz və mübariz dörd sütun.

Bilmirəm niyə, amma Ağdamın işğaldan azad olunan ərazilərində olarkən o sütunların hər kəsi keçmişə çəkdiyini, dünənə can atan körpü obrazında olduğunu hiss etdim. Mənə elə gəldi ki, zamanında gur işıqların altında özünün ən qaynar dövrünü yaşayan, təkcə sənət ocağı deyil, həm də şəhərin ən görkəmli, dəbdəbəli binası kimi ora gələnləre qucaq açan Ağdam teatrı indi məhz bu dörd sütunun şahidliyində yenidən köhnə şöhrətinə qayıtmağın əzmini yaşayır.

Bu xəyali tamaşa-təsvirin kədərli pərdəsini qaldırmaq, daha toxtaq, daha inamlı görünmək üçün onun qarşısında səf tutanların – teatrın kollektivinin sırasından direktor Məhəmməd Hüseynovu seçdim.

Onun bələdçiliyi ilə teatrın həndəvərini dolaşdıq, bu və digər tikililərin qalıqları haqqında danışdıq və bir zamanlar möhtəşəm bina olmuş bu daş topalarının səhnə təəssüratında qürurlu dörd sütuna baxa-baxa, elə ayaqüstü söhbət elədik. Dünənin xatirəsi ilə üz-üzə bu günün teatrından, səhnəsindən söz açdıq.

– Qarabağ ziyalıları və Əbdürrəhim bəy Haqverdiyevin köməkliyi ilə yaradılmış teatrımız ilk tamaşalarını 1910-cu ildə reallaşdırıb. Bunlar M.F.Axundzadənin "Lənkəran xanının vəziri" və Ə.Haqverdiyevin "Dağılan tifaq" pyesləri idi. 1923-cü ilə qədər ictimai əsaslarla dram dərnəyi kimi fəaliyyət göstərsə də, həmin ildən etibarən rəsmi olaraq teatr kimi işinə davam edib.

1923-1948-ci illərdə Ağdam Dövlət Dram Teatrı çox aktiv fəaliyyət göstərib. Həmin illərdə Azərbaycan və dünya dramaturgiyasından tamaşalar səhnələşdirilib. Dram əsərləri ilə yanaşı, "Leyli və Məcnun", "Əsli və Kərəm" operaları da səhnəyə qoyulub. O zamanlar dövrün bir sıra görkəmli ziyalıları bu teatrda çəmləşib. Daha sonra – 1948-ci ildə isə bir çox bölgə teatrları kimi, Ağdam Dövlət Dram Teatrının da fəaliyyəti dayandırılıb. 1948-1968-ci illərdə Xalq teatrı kimi fəaliyyət göstərib, yenə klassik dram əsərləri ilə yanaşı, opera nümunələri də göstərilib. Bu gün məşhur olan bir çox xanəndələr də elə Ağdam teatrı ilə tanınıb. 1968-ci ildə Azərbaycan SSR Nazirlər Soveti tərəfindən Mingəçevir və Sumqayıt şəhərlərində dövlət dram teatrlarının yaradılması, Ağdam Dövlət Dram Teatrının isə fəaliyyətinin bərpa edilməsi haqqında qərar verilir. Bir il sonra İlyas Əfəndiyevin "Boy çiçəyi" və Bəxtiyar Vahabzadənin "Vicdan" əsərləri ilə teatr yaradıcı fəaliyyətini davam etdirməyə başlayır. 70-ci illər mədəniyyət ocağının bütün tarixinin "qızıl dövrü" hesab olunur. O vaxtlar həm də zəngin kadr potensiali var idi. Demək olar ki, aktyor heyətinin mütləq əksəriyyəti peşəkarlar olub.

Ağdam camaatının daim teatra, səhnə sənətinə maraqlı olduğunu, tələbkar və zövqlü tamaşaçı kimi seçildiyini də əlavə edən həmsöhbətim indi nişanələri qalan bu binanın tamaşa salonunun daim alqışlarla guruldadığını, səhnə uğurlarına, yaddaqalan qastrollara, nümayişlərə meydan olduğunu deyir.

– Arada oturub bu qədər vaxtı həsrətə necə dözdüyümüzə, xüsusən bu teatrın səhnəsində özünün səadətini tapanların necə böyük ürəyə sahib olduğuna heyrətlənirəm. Öz yurdunda didərginlik, cəmi bir neçə kilometrlik məsafəyə həsrətlə keçən ömür, vallah, ömür deyildi. Bu teatrın binası kimi sakinləri də əzablara, ağrılara məruz qaldılar. 1993-cü ildə torpaqlarımız işğal edildikdən sonra kollektivin üzvlərindən bir çoxu müxtəlif şəhər və rayonlarda yaşamağa məcbur oldu. Bir neçəsi, ümumiyyətlə, bu sənəti tərk etdi. Beləliklə, teatrın əsas kadr kontingenti dağıldı. Amma teatr yaşamalı, öz missiyasını davam etdirməli idi.



Doxsanıncı illərdən sonra teatra istedadlı gənclər gəlməyə başladılar. Həmin illərdə teatrımız Bərdə şəhərində çox çətin şəraitli binada fəaliyyət göstərirdi. Sonradan teatr növbəti köçünü yaşadı və bu dəfə doğma Ağdamda, Quzanlı qəsəbəsində fəaliyyətini davam etdirməyə başladı. Əsaslı təmir edilmiş Quzanlı qəsəbə Mədəniyyət sarayı teatra verildi. Bununla teatr özünün yeni dövrünə qədəm qoydu, yaradıcılıq həyatına qayıtdı.

İstər ataşkəs dövründə, istərsə də tarixi Qələbəmizdən sonra da daim səngərləri səhnə bilmişik və yorulmadan igid əsgərlərimiz qarşısında çıxışlar etmişik. Bu gün qürurla deməliyəm ki, hər ayın iki gününü "Hərbçilər günü" elan etmişik və müdafiə nazirinin müvafiq əmri ilə həmin günlərdə qəhrəman Vətən oğulları qarşısında çıxışlar edirik.

Bu gün işğaldan azad olunmuş məkanda, ilk səhnəmizin yerində olmağın səadətini yaşayaraq ən qısa zamanda məhz burada ilk tamaşamızı oynamaq arzusundayıq.

Direktor teatrda iki yeni tamaşanın hazırlandığını dedi. Sahib İbrahimlinin "Xeyrullanın toyu" tamaşasına baş rejissor Kərim Həsənli, Nikolay Nekrasovun "Sələmçi" əsərinə isə rejissor Səbuhi Əhmədov quruluş verir.

Əksər bölgə teatrları kimi, Ağdam səhnəsi də ixtisaslı aktyor kadrları sarıdan çətinlik çəkir. Problemin necə həll edilməsi və ümumən gənclərin teatra marağının bərpa olunması barəsində teatr direktorunun fikirlərini eşitmək maraqlı idi.

– Bir çoxumuzun ağrılı yerinə çevrilib bu kadr məsələsi. İncəsənət, aktyorluq üzrə təhsil alanlar olsa da, onlar gedirlər və elə Bakıda qalırlar. Görünür, onlar istəyən şərait yoxdur. Əvvəllər bu məsələlər yəqin fərqli həll olunurmuş. Qeyd etdim kimi, müharibəyə, işğala qədər bizim güclü kadr potensialımız olub, böyük əksəriyyəti də aktyor təhsilli. Amma köçkünlük vaxtı onların da sırası seyrəldi, hərə bir yana düşdü. Əvvəllər teatrların nəzdində studiyalar var idi və oradan çıxanlar elə peşəkar səviyyəsində idi. İndi o studiyalara can atan gənclər də azdır. İnanın, Tərtərdə incəsənət sahəsində təhsili gəncin olduğunu eşidib, arxasınca getmişəm, teatra cəlb etmək üçün xeyli dil tökmüşəm. Amma nə edim ki, gəlmək istəmirlər. İndiki quruluşçu rejissorumuzu da o cür soraqlayıb tapmışam, işləmək üçün şərait yaratmışıq. Təbii ki, imkan daxilində. Özünüz də gördüyünüz kimi, hazırda da elə köçkün vəziyyətindəyik. Amma bütün bunlar bizi işimizdən soyutmur, əksinə, daha da mübariz edir.

Yerli icra orqanının teatra münasibətinə gəlincə, həmsöhbətim bu mənada da müəyyən çətinliklərin olduğunu dedi.

– Bu məsələyə xüsusilə həssaslıqla yanaşmağa çalışan rayon rəhbərliyi olsa da, biz hər saat onların qapısını döyə bilmirik. Deyim niyə? Ağdam minlərlə şəhid verən rayondur, həssas qrupdan olan, xüsusi diqqətə ehtiyac duyan minlərlə sakini var. İnanın, qəbul günlərində gedəndə o qədər problemləri eşidirəm ki, durub şəhid ailəsinin önündə "Teatrımızın bu məsələsini həll edin" deməyə çəkinirəm. İcra Hakimiyyəti də müəyyən mənada dəstək olmağa çalışır, heç olmasa, rübdə bir dəfə də olsa, tamaşamızı alırlar.

Söhbəti nikbin ruhda bitirmək və məğrur sütunların qarşısında ümidlə dayanan heyəti ruhlandırmaq üçün bir az uca səslə soruşuram: "Dostlar, burada ilk olaraq hansı tamaşanı oynamaq istəyərdiniz?".

Eşitdiyim cavabları yaddaş dəftərimə qeyd edib, məhz burada baş tutacaq ilk premyeranı yazacağım vədi ilə Ağdam teatrının tarixi "səhnə"sindən endim...

**Həmidə NİZAMİQIZI**

№89 (1866)
1 dekabr 2021
www.medeniyyet.az

# “Vətən çağırıbsa, getməliyəm...”

44 günlük Vətən müharibəsində qəhrəmanlıqları ilə ölümsüzlüyə ucalan fədailərimizi tanıtmaqda davam edirik. Bu dəfə igid şəhidimiz Yadigar Mahir oğlu Vahabovdan söz açacağıq.



Yadigar 1996-cı ilin 16 avqustunda Ağsu rayonunun Xatman kəndində anadan olub. İlk təhsilini B.Nəsirov adına Dilman kənd tam orta məktəbində alıb. 2009-cu ildə Vahabovlar ailəsi Bakıya köçür. İki il sonra yol qəzası nəticəsində Yadigar atasını itirir. 15 yaşlı yeniyetmə fəhləlik etməyə başlayır, ailənin yükünü çiyinlərinə götürür. 2017-ci ildə hərbi xidmətə yollanan Yadigar Goranboy rayonunda N saylı hərbi hissədə qulluq edir. Ona verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirdiyinə görə komandirlərinin hörmətini qazanır.

2020-ci ilin 27 sentyabrı... 30 ilə yaxın düşmən işğalında olan torpaqlarımızın azad olunma günü gəlib çatır. Yadigar 29 sentyabrda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağsu rayon şöbəsindən gələn çağırış üzrə döyüşə yollanır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı uğrunda döyüşlərdə şücaət göstərir. Oktyabrın 31-də Qubadlı istiqamətində düşmən minaatanının mərmisinə tuş gəlir...

Anası Şölə Vahabova qeyd edir ki, oğlu çağırış gələn gün tərəddüd etmədən döyüşə yollanıb: “Çox mərd, dürüst, namuslu uşaq idi. Harada olduğunu soruşanda yerini demirdi. Hər şeyin qaydasında olduğunu bildirir, evlə maraqlanırdı. Mənə heç nə demirdi ki, ürəyimə nəyisə gətirərəm”.

Şölə xanım deyir ki, oğlu ilə sonuncu dəfə oktyabrın 30-da əlaqə saxlayıb: “Dedi ki, ola bilsin mənə 5 gün zəng çatmasın. Narahat olmayın. Söylədim ki, Yadigar, heç olmasa, mənimlə danışarsan. Yaxşı deyib telefonu söndürdü. Bir gün sonra nə qədər gözləsək də, Yadigardan zəng gəlmədi. Demək, həmin gün günorta saatlarında oğlum şəhid olub. Beş övladım vardı: 3 qız, 2 oğlan. Deyirdim, Yadigar, bircə sən subaysan, səni də evləndirim, gözüm arxada qalmasın. Deyirdi ki, vaxt gələndə öz kəndimizdə toy edəcəyəm. Oğlumun arzuları ürəyində getdi. Yadigar məni yox, Vətəni, torpağı seçdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Şəhid valideynlərinə səbir diləyirəm”.

“Vətən çağırıbsa, getməliyəm” deyən qəhrəman şəhiddən geriyə foto, videogörüntüləri, bir də hüznlü xatirələr yadigar qalıb.

Şəhid Yadigar Vahabov noyabrın 1-də doğulduğu Xatman kənd qəbiristanlığında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif olunub.

Allah rəhmət eləsin.

**NURƏDDİN**

# Dövlət Film Fondunda Rasim İsmayılovun şəxsi arxiv fondu yaradılıb

Azərbaycan Dövlət Film Fondunda tanınmış kinooperator, rejissor, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Rasim İsmayılovun (1936–2004) şəxsi arxiv fondu yaradılıb.



Fonda sənətkarın 600-dən çox fotoşəkli, əlyazmaları, eskizləri, ssenariləri və s. arxiv sənədləri daxil olub.

Rasim İsmayılov “Gün keçdi”, “Yeddi oğul istərəm”, “Axırıncı aşırım”, “Nəsimi”, “Dədə Qorqud”, “Babək” və s. filmlərin quruluşçu operatoru olub. O, eyni zamanda, “Asif, Vasif, Ağasif”, “Şir evdən getdi”, “İşgüzar səfər”, “Sizi dünyalar qədər sevirdim”, “Tələ” və s. bədii filmlərin quruluşçu rejissorudur.

Əməkdar incəsənət xadimi Rasim İsmayılovun şəxsi arxiv fondunun yaradılması sənətkarın anadan olmasının 85 illiyinə ithaf olunub.

# “Dizayn insanı”

## Tanınmış memar haqqında filmin təqdimatı

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) tanınmış memar, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, professor Rəfael Həsənovun xatirəsinə həsr olunmuş “Dizayn insanı” sənədli filminin təqdimatı keçirilib.



AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova universitetin Dizayn kafedrasının müdiri olmuş R.Həsənovun ömür yolu, fəaliyyəti haqqında məlumat verib. Vurğulayıb ki, Rəfael müəllim təkcə memar kimi deyil, həm də pedaqoq kimi gənc memar-dizaynerlərin yetişməsində böyük xidmətlər göstərib.

Azərbaycan Memarlar İttifaqının sədri, AzMİU-nun Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasının müdiri, professor Elbay Qasımzadə R.Həsənovun Azərbaycanda dizayn elminin banisi kimi xidmətlərindən danışıb.

Memarlıq fakültəsinin dekanı Zahidə Məmmədova, kafedra müdirləri Aybəniz Həsənova, Nizami Nağıyev R.Həsənovla bağlı xatirələrini bölüşüblər.

Tədbirin qonaqları – Xalq artisti Xuraman Qasımova, R.Həsənovun tələbə yoldaşları və dostları da onun işıqlı xatirəsini yad ediblər.

Filmin rejissoru və ideya müəllifi Eldara Əliyeva çəkilişdə göstərilən dəstəyə görə memarın ailə üzvlərinə təşəkkür edib.

Çıxışlardan sonra film təqdim olunub.

R.Həsənovun xanımı və qızı belə bir görüşün təşkilinə görə universitet rəhbərliyinə, filmin yaradıcı heyətinə təşəkkürlərini bildiriblər.

# “Xəmsə”nin Şərq-Qərb ədəbi-mədəni əlaqələri sistemində yeri

AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin təşkilatçılığı ilə 25–27 noyabr tarixində ”Nizami Gəncəvi ”Xəmsə”sinin Şərq-Qərb ədəbi-mədəni əlaqələri sistemində yeri və yaratdığı yeni istiqamətlər” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Hibrid (bilavasitə iştirak və onlayn qatılım) formatda təşkil edilən beynəlxalq elmi konfrans dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunub.

Konfransın plenar iclasında çıxış edən Ədəbiyyat Muzeyinin baş direktoru, akademik Rafael Hüseynov böyük Azərbaycan şairinin yubileylərinin hər zaman beynəlxalq səviyyədə qeyd olunduğunu vurğulayıb. Rafael Hüseynov dünya ədəbiyyatının görkəmli nümayəndəsi Nizami Gəncəvinin bəşəriyyətin bədii fikir salnaməsində özünəməxsus yerə malik nadir şəxsiyyətlərdən olduğunu söyləyib, dahi şairin xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsindən danışıb. Qeyd edib ki, Nizami özünün bu torpağa, bu dilə, bu mədəniyyətə bağlılığını bütün yaradıcılığında dönə-dönə ifadə edib.

Nizami Gəncəvinin azərbaycanlı mənşəyi, onun öz dövründə və sonrakı dövrlərdə həm Azərbaycan, həm də dünya ədəbiyyatına ciddi təsiri, dahi şairin həyat və yaradıcılığının müxtəlif alimlərin araşdırmalarında yeri, əsərlərinin tərcüməsi haqqında məlumat verən Rafael Hüseynov bildirib ki, şair öz yaradıcılığının miqyası, müraciət etdiyi mövzularla bütün dünya xalqlarının şairidir, bütün millətlər Nizami yaradıcılığında özünü tapa bilər: “Dünya ədəbiyyatının daha da zənginləşməsində mühüm rol oynayan Nizami Gəncəvinin unikallığı ondan ibarətdir ki, o, ardıcıllarını yetişdirdiyi bir məktəb yaradıb. Farsdilli, rusdilli, türkdilli və digər xalqların ədəbiyyatında Nizami Gəncəviyə yüzlərlə nəzirə yazılıb”.

Akademik Nizaminin əsərlərini fars dilində yazmasına toxunaraq qeyd edib ki, həmin dövrdə ərəb və fars dilləri qloballaşmanın əsas göstəricisi olduğundan Nizami əsərlərini Azərbaycan dilində deyil, fars dilində yazmağa üstünlük verib: “Görkəmli mütəfəkkirin əsərlərini fars dilində yazması farsdilli ədəbiyyatın inkişafına öz müsbət təsirini göstərib və bu ədəbiyyatın içərisində Azərbaycan üslubunun formalaşmasında mühüm əhəmiyyət kəsb edib.





Hələ XII əsrdə Hindistanda Nizamiyə nəzirələr yazılması məhz fars dilinin qovuşdurucu dil funksiyasını yerinə yetirməsi ilə bağlı idi”.

R.Hüseynov onu da diqqətə çatdırıb ki, Nizami Gəncəvinin yaradıcılığının XIX əsrdən etibarən əsas Avropa dillərinə tərcümə olunması ilə Qərb mütəfəkkirləri onun əsərlərindən ilhamlanaraq cavablar yazmağa başlayıb və XXI əsrdə dahi şairin əsərlərinin tərcümə olunduğu dillərin sayı getdikcə artıb. Nizaminin əsərlərində yaratdığı dünyanın, hər kəsin azad yaşadığı daha mükəmməl gələcəyin hələ çox uzaqlarda olduğunu bildirən akademik bu əsərlərin insanları daha mükəmməl cəmiyyət qurmağa təşviq etdiyini deyib.

Konfransa Azərbaycanın müxtəlif elm, təhsil ocaqları ilə yanaşı, Türkiyə, Qazaxıstan, Özbəkistan və İtaliyadan tanınmış şərqşünas alimlər qatılıb.

Konfransın ilk günündə dosent Əsmətxanım Məmmədovanın “Heç bitməyən Nizami sevdası”, professor Xəlil Yusiflinin “Axsitanın Nizamiyə məktubu. Yozum və həqiqət”, professor Şəfəq Əlibəylinin “Nizami nəzmində rənglər palitrası (struktur – semantik və funksional aspektdə)”, filologiya elmləri doktoru Şodimuxammad Sufizodanın (Tacikistan) “Saqinamə janrının formalaşmasında Nizami Gəncəvinin rolu”, professor Qaziz Telebaevin (Qazaxıstan) “Nizami Gəncəvi və Yusuf Balasaqunlunun fəlsəfi dünyası” və digər məruzələr dinlənilib.

Üç gün ərzində 11 bölmə iclasında ümumilikdə 100-dən artıq məruzə təqdim olunub. Türkiyəli professor Ali Temizelin “Türkiyə universitetlərində Nizami Gəncəvi haqqında aparılan elmi araşdırmalar”, BDU-nun dosenti Nüşabə Əlizadənin “Nizami Gəncəvi ədəbi irsinin yorulmaz tədqiqatçısı”, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, dosent Könül Hacıyevanın “Nizami Gəncəvinin “Həft peykər” poeması və ona nəzirə olaraq yazılmış “Həşt behişt” əsəri haqqında”, Azərbaycan Turizm və Menecment Universitetinin dosenti Günay Qafarovanın “Nizaminin əlyazmalarını bəzəyən Təbriz miniatürlərinin etnoqrafik özəllikləri”, Naxçıvan Dövlət Universitetinin dosenti Mehriban Əsədullasoyun “XIX əsr Naxçıvan ədəbi mühitində Nizami Gəncəvi” və digər mövzularda məruzələr maraqla qarşılanıb.

Konfransın sonunda çıxış edən akademik Rafael Hüseynov Nizami Gəncəvi irsi və Avropa ədəbi-mədəni mühiti, “Xəmsə”nin müxtəlif dillərə tərcüməsi problemləri, Nizami irsi və klassik Şərq ədəbiyyatında forma, janr və poetika məsələləri, şairin irsinin Azərbaycan və dünya incəsənəti müstəvisində tədqiqi və digər mövzularda elmi müzakirələrin aparıldığı konfransın iştirakçılarına təşəkkürünü bildirib.

Konfransda Nizami Gəncəvinin yaradıcılığına həsr olunan sərgi təşkil edilib, stendlər nümayiş olunub.

# Rusiya EA-nın nümayəndə heyəti Yeseninin ev-muzeyində olub

Azərbaycana səfərə gəlmiş Rusiya Elmlər Akademiyasının (REA) prezidenti, akademik Aleksandr Sergeyevin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 27-də AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Sergey Yesenin adına Azərbaycan-Rusiya Ədəbi Əlaqələr Mərkəzinin fəaliyyəti ilə tanış olub.



AMEA-dan bildirilib ki, nümayəndə heyətinə Sergey Yesenin adına Azərbaycan-Rusiya Ədəbi Əlaqələr Mərkəzinin fəaliyyəti barədə məlumat verilib. Bildirilib ki, şairin ev-muzeyi ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1975-ci ildə Mərdəkanda, Dendroloji parkın ərazisində açılıb. Şair 1924-cü ildə Bakıda olarkən bu evdə yaşayıb. Mərdəkan dendrarisi 1895-1920-ci illərdə Bakı milyonçusu Murtuza Muxtarovun şəxsi bağı olub.

Ev-muzeyi AMEA Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynovun təşəbbüsü ilə 2008-ci ildə Sergey Yeseninin adını daşıyan Azərbaycan-Rusiya Ədəbi Əlaqələri Mərkəzinə çevrilib.

Mərkəz ilə tanışlıq zamanı qonaqlara Sergey Yeseninin Bakıya olan sevgisindən bəhs edilib, bu sevginin şairin yaradıcılığında öz əksini tapdığı vurğulanıb. Mərkəzin Azərbaycan və Rusiya arasında elmi, mədəni və dostluq əlaqələrinin möhkəmlənməsi baxımından əhəmiyyəti vurğulanıb.

Sonra nümayəndə heyəti AMEA-nın Dendrologiya İnstitutunda görülən işlərlə tanış olub.

# “Qızıl Azərbaycan aşığı”

Şirvan aşıq mühitinin yetirdiyi tanınmış sənətkarlardan biri də Aşıq Mirzə Bilal olub. O, 40 ilə yaxın el məclislərində çıxış edib, bu sənəti təbliğ edib. Eyni zamanda aşıq şeirinin bir çox janrlarında əsərlər yaradıb, onlarca şəyird yetişdirib.

Aşıq Mirzə Bilal Mustafa oğlu 1872-ci ildə Şamaxı qəzasında, indiki Ağsu rayonunun Qəşəd kəndində dünyaya göz açıb. Erkən çağlardan poeziyaya maraq göstərir. Ancaq ailə qəflətən bədbəxtliklə üzləşir. Mustafa kişi 1880-ci ildə vəfat edir. Ailənin dolanışığı balaca Bilalın üzərinə düşür. İmkansızlıq üzündən məktəbə gedə bilmir. Ancaq tay-tuşları arasında iti yaddaşı, istiqanlılığı, mehribanlığı və məlahətli səsi ilə diqqət çəkir. Bilalın bu keyfiyyətlərini görən Molla Xası onu öz məktəbinə götürür. O, burada ərəb, fars dillərini öyrənir. Məktəbi bitirdikdən sonra Molla Xası ona Seyid Əzim Şirvaninin məktəbində oxumağı məsləhət görür. Bilalın gələcəyinə ümidlə baxan Seyid Əzim isə ona ilk gündən xeyir-dua verir. Bilal təhsilini başa vurduqdan sonra bir müddət Şamaxıda Mahmud ağanın şeir-musiqi, S.Ə.Şirvaninin “Beytüs-Səfa” və digər məclislərdə iştirak edir. Beləliklə, Şamaxı ədəbi mühiti onu sənət dünyasına bağlayır. Mahmud ağanın məclisində Əngəxaranlı Aşıq İbrahimlə tanışlı-



ğı gənc Bilalda aşıq sənətinə dərin maraq yaradır. O, muğam sənətinin sirlərini isə “Şirvan bülbülü” adlandırılan Mirzə Məhəmmədhəsəndən öyrənir.

Araşdırmalarda qeyd edilir ki, görkəmli sənətkar aşıqlıq fəaliyyəti dövründə Şamaxının ünlü ziyalılarından M.Ə.Sabir, A.Səhhət, M.Hadi, S.Qənizadə, Aşıq İbrahim, Aşıq Nurəddin, Əbdülxaliq Əfəndi və s. ilə ünsiyyətdə olub. Bu mühit Aşıq Mirzə Bilalın dünyagörüşünün formalaşmasına və yaradıcılığının zənginləşməsinə müsbət təsir göstərib.

Getdikcə sənət şöhrəti Şirvanın hüdudlarını aşsa da, öz ustadlarını unutmur, ziyalılarla ünsiyyətini kəsmir. Ağsuda yaşayıb-yaradan məşhur “Aşıq Cəlal və Kəklik” dastanının müəllifi Aşıq Cəlal və tanınmış xanəndə Mirzə Məmmədhəsənlə yaxın dostluğunu davam etdirir.

Günlərin birində Şamaxıda M.Məmmədhəsənin yanına gedərkən Sarıtorpaq məhəlləsindən keçir. Talıb kişinin qızı Soltanxanımı görür və ona aşiq olur. Aşıq Bilal bu münasibətlə “Sarıtorpaq” şeirində yazır:

*Çəmənlər qoynunda, güllər içində,*
*Mən səni çiçəklər əlində gördüm.*
*Şəkəri, badamı, noğulu, qəndi,*
*Ağzında, ləbində, dilində gördüm.*

Aşıq Mirzə Bilal yaradıcı sənətkar kimi “Havar-koxa”, “Güdayı”, “Bilal gözəlləməsi” və digər aşıq havalarının müəllifi kimi də tanınıb.

El sənətkarı Bakı şəhərində də toy şənliklərində iştirak edib. Ü.Hacıbəyli, C.Qaryağdıoğlu, S.Şuşinski, Q.Pirimov, Aşıq Sənəm, Aşıq Mirzə, Aşıq Əsəd, Aşıq İslam, Aşıq Məhəmməd və digər sənət adamları ilə dostluq əlaqələri saxlayıb. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulandan sonra Şamaxıda yerli hakimiyyət orqanında çalışır.

Aşıq Mirzə Bilal 5 may 1928-ci ildə Bakıda keçirilən Azərbaycan Aşıqlarının birinci qurultayında iştirak edib. Qurultayda “Qızıl Azərbaycan aşığı” fəxri adına layiq görülüb. Sovetlərin şəninə şeirlər qələmə alıb.

Ancaq onun vaxtilə Cümhuriyyətə də rəğbət bəsləməsi yeni quruluşda diqqətdən yayınmır, təqib və təhdidə məruz qalır. 1933-cü ildə adı qolçomaq siyahısına salınır və həbs edilir. Aşıq bu haqsızlığa qarşı dərdli-məlallı şeirlər yazır:

*Dəli könlüm, heç ahu-zar eyləmə,*
*Hər iş qaydasında keçib gedəcək.*
*Dünyanı dördəlli qamarlayanlar,*
*Əcəl şərbətini içib gedəcək.*

Bir müddət sonra onun həbsi üçün heç bir əsas olmadığına görə azad edilir.

Repressiya dalğasının tüğyan etdiyi bir dövrdə – 15 iyul 1937-ci ildə sənətkar bir daha nəzarətə götürülür. Şamaxıda əksinqilabi təşkilatın üzvü olmaqda təqsirli bilinərək həbs edilir. Evi, əmlakı müsadirə olunur, arxivi və cürə sazı da götürülür. Həmin ilin qışında saxta ittihamlarla 65 yaşında güllələnir.

Aşıq Mirzə Bilalın sənət yolu oğlu, tanınmış saz-söz adamı Ağalar Mikayılov (1913–1988) tərəfindən davam etdirilib. Aşıq Ağalar yüzlərlə şeiri, 4 dastanrəvayəti və qəlb titrədən avazı ilə yaddaşlara köçüb.

**S.FƏRƏCOV**

## Nizami sözündən incilər

# Nəhəng vuruşuna dəniz də azdır...

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

*Nəhəng vuruşuna dəniz də azdır,*
*Xırda balıqların yeri dayazdır.*

**("Xosrov və Şirin")**



*Dərdə döz, incitmə heç də özgəni,*
*Ellər qəm çəkincə dərd alsın səni.*

**("Leyli və Məcnun")**

*Əzəldən sevdiyim əməkdir, işdir,*
*Hər ağac bir bağdan gətirilmişdir.*

**("Yeddi gözəl")**

*İnsanı süst edən boş-boş yatmaqdan*
*Nolaydı, gözünü açaydı insan.*

**("İskəndərnamə" – "İqbalnamə")**

*Bərk ayaqda səmimi,*
*ürəyi təmiz yoldaş*
*Nə ayağından çəkər,*
*nə səndən qaçırar baş.*

**("Sirlər xəzinəsi")**

# Musiqidə maarifçilik təmayülləri

*Qüvvət elmdədir, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz!*
*Hər uca rütbədən biliniz fəqət*
*Alimin rütbəsi ucadır, əlbət!*

**Nizami Gəncəvi**

Dahi şairimiz Nizami Gəncəvi də alimin peşəsinin uca olmasını hər kəsdən üstün tutub. Bu müdrik kəlamdan göründüyü kimi, elm sahibi olan insanların yaratdıqları sənət əsərləri xalqımıza mənəvi mirasdır. Belə elm xadimlərindən biri olan sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) "Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi: orqanologiya və akustika" elmi tədqiqat laboratoriyasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nuridə İsmayılzadənin bu yaxınlarda işıq üzü görən monoqrafiyası da Azərbaycan musiqi mədəniyyətinə bir töhfədir.

BMA-nın Elmi Şurasının qərarı ilə çap olunan "Azərbaycan musiqi tarixində maarifçilik təmayülləri (XIX əsrin sonu-XX əsrin əvvəlləri)" adlı monoqrafiyanın elmi redaktoru fəlsəfə elmləri doktoru, professor, Əməkdar incəsənət xadimi, akademiyanın elm və yaradıcılıq işləri üzrə prorektoru Gülnaz Abdullazadə, elmi rəyçilər sənətşünaslıq elmləri doktoru, professor, Əməkdar incəsənət xadimi İmruz Əfəndiyeva və sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Rüqiyyə Süleymanovadır.

Nuridə xanım bir sıra dərs vəsaiti və monoqrafiyaların müəllifidir. Bunlardan "Azərbaycan musiqisi tarixindən. Mesenatlıq və maarifçilik ənənələri" (rus dilində), "Böyük maarifçi – Əfrasiyab Bədəlbəyli", "İsa bəy Ha-




cınski. Şanlı ömrün səhifələri" (Azərbaycan və rus dillərində), "Müasirlərimiz: Həsən Ağa Adıgözəlzadə", "XX əsrdə Azərbaycan-Rusiya musiqi əlaqələri" (rus dilində) və başqalarını qeyd etmək olar. Alim hazırda doktorluq dissertasiyasının müdafiəsinə hazırlaşır.

"Azərbaycan musiqi tarixində maarifçilik təmayülləri (XIX əsrin sonu-XX əsrin əvvəlləri)" kitabı BMA-nın 100 illiyinə həsr olunmuş monoqrafiyalardan biridir və musiqi tədrisi ocaqları üçün dərs vəsaiti kimi nəzərdə tutulub. Monoqrafiya 4 fəsildən ibarətdir.

"XX əsrin əvvəllərində ilk peşəkar musiqi təhsilinin yaranması və formalaşması (1900-1907)" adlı I fəsil "XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıda keçirilən qastrol konsertlərinin peşəkar musiqi təhsilinin yaranmasında və inkişafında təsiri" və "Azərbaycan milli musiqisinin və Avropa klassik ənənəli musiqi ifaçılarının peşəkar teatr səhnələrdəki fəaliyyətləri haqqında ümumi icmal" bölmələrindən ibarətdir. 1900-1907-ci illəri əhatə edən bölmələrdə Avropa və Rusiya musiqiçilərinin Bakıya qastrol səfərləri, bu konsertlərin Azərbaycan dinləyiciləri tərəfindən xüsusi rəğbətlə qarşılanması və klassik musiqiyə olan marağın artmasından bəhs olunur.

Kitabda peşəkar musiqi təhsili verən kursların, məktəblərin açılması, Rusiya Konservatoriyasının müəllimlərinin Bakıda pedaqoji fəaliyyəti işıqlandırılıb. Bununla yanaşı, dahi bəstəkarımız Üzeyir Hacıbəylinin müsəlman Şərqində ilk operanı ("Leyli və Məcnun") ərsəyə gətirməsi, operanın səhnəyə qoyulması haqda məlumatlar verilir.

II fəsil Azərbaycan musiqi sənətinin inkişafında "Şərq konsertləri"nin və "Müsəlman axşamları"nın tarixi rolu və əhəmiyyətindən bəhs edir. XX əsrin sonlarında Şuşada və Bakıda keçirilən bu konsertlərin, musiqi axşamlarının nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda da əks-səda doğurması, bu konsertlərdə xalq musiqisinin, aşıq musiqisinin təqdimatına geniş yer verilməsi xüsusilə qeyd olunur.

"Azərbaycan musiqi mədəniyyətinin inkişafında "Nəşr-maarif", "Nicat", "Səfa" maarifçi və xeyriyyəçi cəmiyyətlərinin rolu" adlı III fəsildə XX əsrin əvvəllərində maarifçilik hərəkatı və onun mədəni inkişafa təsiri, Azərbaycanda milli operanın yaranması və səhnəyə qoyulmasında "Nicat" cəmiyyətinin rolu, ümumiyyətlə, cəmiyyətin fəaliyyətinin Azərbaycan mədəniyyətindəki əhəmiyyəti qeyd edilir. Bununla yanaşı, digər maarifçi cəmiyyətlərin fəaliyyəti, o cümlədən "Z. və Ü. Hacıbəyov qardaşları müdiriyyəti" təşkilatının musiqi mədəniyyətimizdə rolu işıqlandırılıb. Bu təşkilatın yaradıcıları Azərbaycanın, İranın bir çox şəhərlərində də qastrol səfərlərində olmuş, Üzeyir bəyin, Zülfüqar Hacıbəyovun, Müslüm Maqomayevin opera və musiqili komediyalarını səhnəcik şəklində tamaşaçılara təqdim etmişlər.

Sonuncu fəsil "XX əsrin əvvəllərində Bakı şəhərinin musiqi tarixinə maarifçilik təmayülləri kontekstində bir nəzər" adlanır və 1907-1914-cü illəri əhatə edir. Bakının musiqi həyatında baş verən əsas hadisələr, qastrola gəlmiş məşhur artistlərin təqdim etdikləri opera tamaşaları və ifaçıların konsert proqramları haqqında məlumat verilir. Vurğulanır ki, artıq təkcə Rusiyanın iri şəhərlərindən deyil, Avropanın nüfuzlu mədəniyyət mərkəzlərindən – Varşavadan, Milandan da Bakıya gələn musiqiçilərin və dirijorların iştirakı ilə keçirilən konsertlər Azərbaycan dinləyicilərinin dünyagörüşünə və musiqi mədəniyyətinə marağın artmasına təsir göstərib.

Kitabda dövri mətbuatda ("Kaspi", "Bakı", "İqbal", "Tərəqqi" və s. qəzetlər) dərc olunmuş məqalələrə istinad edilib.

Musiqi mədəniyyətimizlə bağlı hər yeni monoqrafiya, kitab, toplu ümumilikdə mədəniyyət tariximiz üçün nailiyyətdir. Bu nailiyyəti xalqa təqdim edən, elmi-yaradıcı fəaliyyəti ilə mədəniyyətimizi zənginləşdirən elm və incəsənət xadimlərimizə təşəkkür edirik.

**Fidan NƏSİROVA**
**BMA-nın elmi tədqiqat laboratoriyasının əməkdaşı**

# Həyatının rəsmini çəkə bilməyən rəssam



Yurdumuz öz əsərləri ilə sevilib-seçilən, məşhur olan bir çox sənətkarlar yetişdirmişdir. Belə şəxsiyyətlər öz həyat yolları ilə də bizi bəzən duyğulandırır, bəzən heyrətə gətirir, bəzən isə yaşadıqları qarşısında göstərdikləri yaradıcılıq əzminə alqış və təqdir hissi oyadırlar. Öz bacarığı ilə seçilən Azadənin adı da bu simaların arasında idi. Həyat ona istedad, qabiliyyət, əvəzolunmaz əsərləri yaradan əllər vermiş olsa da, təəssüf ki, Azadə öz həyatının rəsmini çəkə bilmədi...

Azadə Azad qızı Əliyeva 1981-ci ildə Bakı şəhərində anadan olmuşdu. O, erkən yaşlarından sənətə maraq göstərir və atasının – tanınmış rəssam, heykəltəraş Azad Əliyevin yolunu davam etdirməyə qərar verir. 1996-cı ildə orta məktəbi bitirib, Əzim Əzimzadə adına Rəssamlıq Texnikumunun Teatr-dekorasiya fakültəsinə daxil olur. İstedadı ilə hamını heyrətə gətirən gənc qız 2001-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının (ADRA) Qrafika fakültəsinə daxil olur. Bakalavr diplomunun müdafiəsi üçün "Lənkəran qadınları" mövzusunu seçir. Bədii cəhətdən olduqca maraqlı olan və yüksək qiymətləndirilən silsilə əsərləri ərsəyə gətirir. Uğurlarının ardı-arası kəsilməyən, daim yaradıcılıq axtarışında olan gənc rəssam "Yatmış qadın", "Qadın fiquru", "Çiçək", "Abşeronlu kişi", "Dövlət iqamətgahı", "Mənzərə", "İçərişəhər", "İstirahət edən qadın", "Qadınlar çay qırağında", "Sap əyirənlər", "Qazların dostu", "Təndir çörəyi", "Axşama hazırlıq", "Zənbil toxuyanlar" və s. kimi sərgilərdə nümayiş olunan və kolleksiyalara daxil olan əsərlərin, bədii obrazlı, milli ruhda yaratdığı gəlinciklərin müəllifi olur.





Bakalavr təhsilini müvəffəqiyyətlə başa vuran gənc rəssam qəlbinin səsini dinləyərək nail olduqları ilə kifayətlənmir. 2004-cü ildə ADRA-nın Sənətşünaslıq fakültəsinin magistr pilləsinə daxil olur. Yaradıcılıq arzuları ilə dolu olan gənc qız elə həmin ildə Azərbaycan Beynəlxalq Universitetinin Rəssamlıq fakültəsində müəllim vəzifəsində çalışmağa başlayır.

Əsərlərini fərdi və müxtəlif kollektiv sərgilərdə sənətsevərlərə təqdim edən Azadə gənc həmkarları arasında öz yaradıcılığı ilə tanınır və seçilirdi. Hələ 1996-cı ildə, texnikumda təhsil aldığı zaman Əlcəzairdə "Dünya gənclərinin əl işləri" adlı sərgidə milli geyimli gəlinciklər kompozisiyası ilə çıxış etmiş, 2000-ci ildə ADRA tərəfindən təşkil olunmuş "Gənc rəssamlar" adlı sərgidə iştirak edərək diplom və mükafatlara layiq görülmüşdü. 2003-cü ildə Azərbaycan Rəssamlar İttifaqının gənclər bölməsinə üzv qəbul edilmiş, 2004-cü ildə Azərbaycan Dövlət Opera və Balet Teatrında dekorasiya rəssamı kimi də özünü sınamışdı.

Onu tanıyan hər kəs, tələbə yoldaşları, müəllimləri necə mehriban, xeyirxah, qayğıkeş, gözəl qəlbli və istedadlı olmasından indi də ağızdolusu bəhs edir. Məhz bu xüsusiyyətlərinə görə böyük bir rəğbət qazanmışdı. Kiçik ömrünə olduqca əhatəli və hərtərəfli yaradıcılıq uğurları sığdırdı bu gənc qız. Ömür vəfa edib tale aman verseydi, uğurlu bir sənətşünas da olacaqdı.

Yaradıcılığı ilə həm sənətsevərləri valeh edib, həm də digər gənc rəssamların ilham mənbəyi olmağı bacaran Azadə nakam həyatı ilə də hər kəsi hüznə boğdu. Gənc yaşında ağır xəstəliyə tutuldu, amma xəstəlik qarşısında sınmadı. O, ömrünün ən gözəl çağında ikən, 24 yaşında həyatın yaşatdığı hüznə əyilmədən dünyadan köçdü.

Şairə Rəna Mirzəyeva onun nakam həyatından bəhs edən "Gedirəm" adlı şeir yazdı. Nəticədə Hikmət Mirməmmədlinin bəstələdiyi və Röyanın ifasında eşitdiyimiz "Gedirəm" adlı mahnı yaranmış oldu.

Azadə vəfatı ilə ardında sənətsevərləri buraxsa da, həyat eşqi ilə dolu olan əsərlərini sənət aləminə bəxş edərək getdi. Biz onu heç zaman unutmayacağıq...

**Ziyarət CABAROVA**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi**

## Xatirə təqvimi — 1–5 dekabr

### Azərbaycan

**1 dekabr 1940** – Teatr xadimi, dramaturq, aktyor, Əməkdar artist Mirmahmud Mirələkbər oğlu Kazımovski (1882-1940) vəfat edib. Kiçik pyes, vodevil və musiqili komediyalar yazıb. "Bakılılar" (1938), "Kəndlilər" (1939) filmlərində çəkilib.

**1 dekabr 1981** – Bakıda görkəmli aktyor, rejissor Hüseyn Ərəblinskinin 100 illiyinə həsr olunmuş təntənəli gecə keçirilib. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə iştirak edib.

**1 dekabr 2004** – Xalq şairi Məmməd Araz (Məmməd İnfil oğlu İbrahimov; 14.10.1933 – 2004) vəfat edib. Kitabları: "Qayalara yazılan səs", "Yolayrıcında söhbət" və s. Rus dilindən ədəbi tərcümələr edib. Azərbaycanın "İstiqlal" ordeninə layiq görülmüş (1995) ilk şairlərdən biridir.

**2 dekabr 1929** – Şair, ədəbiyyatşünas, pedaqoq Həsənəli xan Qaradaği (1848–1929) vəfat edib. Aleksey Çernyayevski ilə birgə Azərbaycan dilində "Vətən dili" dərsliyini (1882) hazırlayıb.

**2 dekabr 1966** – Əməkdar artist Atamoğlan Balababa oğlu Rzayev (1912–1966) vəfat edib. Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərdə ("Kəndlilər", "Koroğlu") çəkilib.

**2 dekabr 2002** – Əməkdar artist, vokalçı Rəhilə Muxtar qızı Cabbarova (24.11.1922 – 2002) vəfat edib. Opera və Balet Teatrının solisti olub, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**3 dekabr 1918** – Aktyor, rejissor, teatr təşkilatçısı Əbülfət Məmmədhəsən oğlu Vəli (1867-1918) vəfat edib.

**3 dekabr 1920** – Şair, qəzəlxan Ələkbər Şahid (Ələkbər Şahbaz oğlu Axundov; 1920 – 12.12.1999) anadan olub.

**3 dekabr 1937** – Əməkdar mədəniyyət işçisi, kinoşünas Natalya Borisovna Şneyer (1937–2019) anadan olub.

**3 dekabr 1996** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Məlik Yusif oğlu Dadaşov (7.6.1924 – 1996) vəfat edib. Akademik Dram Teatrında çalışıb. Dövlət Rus Dram Teatrının direktoru (1989-1991) olub.

**3 dekabr 1997** – Respublika Sarayında Azərbaycan professional vokal sənətinin banisi Bülbülün 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi keçirilib. Prezident Heydər Əliyev mərasimdə çıxış edib.

**3 dekabr 2020** – Əməkdar rəssam Rafael Abbas oğlu Abbasov (28.11.1943 – 2020) vəfat edib. Portretlər, süjetli tablolar, Azərbaycan təbiətini tərənnüm edən mənzərələrin müəllifidir.

**4 dekabr 1979** – Xalq artisti Sona Salman qızı Hacıyeva (25.6.1907 – 1979) vəfat edib. Akademik Dram Teatrının aktrisası olub. "Bəxtiyar", "O olmasın, bu olsun", "Qızmar günəş altında", "Səhər" filmlərində çəkilib.

**5 dekabr 1906** – Xalq artisti Əşrəf Əmrah oğlu Yusifzadə (1906 – 7.3.1963) Naxçıvanın MR Şərur rayonunun Sərxanlı kəndində doğulub. Bakı Türk İşçi Teatrında, Gəncə Dram Teatrında çalışıb, filmlərdə ("Səhər", "Kölgələr sürünür") çəkilib.

**5 dekabr 1912** – Əməkdar incəsənət xadimi, rəssam Sadıq Hüseyn oğlu Şərifzadə (1912 – 2.1.1986) Təbrizdə anadan olub. Əsərləri: "Səttarxan fədailəri Təbrizdə", "Sərkərdə Babəkin portreti", "Nəsiminin portreti", "M.Ə.Sabirin portreti" və s. Teatr tamaşalarına bədii tərtibat verib.

**5 dekabr 1921** – Tanınmış aktyor, Xalq artisti Həsənağa Dərya oğlu Salayev (1921 – 2.10.1981) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. "Görüş", "Onu bağışlamaq olarmı?", "Aygün" və s. filmlərdə çəkilib.

**5 dekabr 1924** - Kinorejissor, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Şamil Fərəməz oğlu Mahmudbəyov (1924 – 20.5.1997) anadan olub. "Qaraca qız", "Romeo mənim qonşumdur", "Şərikli çörək", "Həyat bizi sınayır" və s. filmlərə quruluş verib.

**5 dekabr 1924** – Əməkdar artist Şəfiqə Qasım qızı Qasımova (1924 – 3.4. 2008) Bakıda anadan olub. Musiqili Komediya, Opera və Balet teatrlarında çalışıb, filmlərdə çəkilib.

**5 dekabr 1925** – Xalq rəssamı, Dövlət mükafatı laureatı, professor Nadir Qənbər oğlu Əbdürrəhmanov (1925 – 26.7.2008) Laçın rayonunda doğulub. "Sevimli naxışlar", "Çəltikbecərənlər", "Dağlarda bahar" və s. Azərbaycan Rəssamlar İttifaqının sədri olub.

**5 dekabr 1927** – Yazıçı, Əməkdar mədəniyyət işçisi Cəmil Adil oğlu Əlibəyov (1927 – 26.10.2014) Füzuli rayonunun Dədəli kəndində doğulub. "Azərbaycanfilm"in direktoru olub. "Həyatın özü", "İlk məhəbbət" romanları, "Gülüstanda qətl" pyesi və s. əsərlərin müəllifidir. Rus dilindən ədəbi tərcümələr edib.

**5 dekabr 1927** – Yazıçı, şair İsmayıl Abuzər oğlu Qarayev (1927 – 9.101989) Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində anadan olub. "Gənclik" nəşriyyatında baş redaktor işləyib.

**5 dekabr 1934** – Əməkdar artist, tanınmış pianoçu Rafiq Teyyub oğlu Quliyev (1934 – 19.8.2007) Bakıda doğulub. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru olub.

**5 dekabr 1941** – Böyük şair, dramaturq Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə; 24.10.1882 – 1941) vəfat edib. Azərbaycan ədəbiyyatında ilk mənzum dramların, tarixi-fəlsəfi pyeslərin müəllifidir. 1938-ci ildə repressiya edilərək Sibirə sürgün olunub, İrkutsk vilayətində dünyasını dəyişib.

**5 dekabr 1947** – Xalq artisti Larisa Afanasyevna Vinoqradova (1947 – 16.9.2009) Türkmənistanın Marı şəhərində anadan olub. Azərbaycan Dövlət Akademik Musiqili Teatrında çalışıb, televiziya tamaşalarında çəkilib.

### Dünya

**1 dekabr 1940** – Amerikalı komediya aktyoru, ssenarist Riçard Prayor (Richard Pryor; 1940-2005) anadan olub.

**2 dekabr 1888** – Türk yazıçısı, şair Namiq Kamal (21.12.1840 – 1888) vəfat edib. Əsərləri: "İntibah", "Cezmi", "Cəlaləddin", "Şah" və s.

**2 dekabr 1891** – Alman boyakarı və qrafiki Otto Diks (1891-1969) anadan olub.

**2 dekabr 1923** – Yunan əsilli Amerika opera müğənnisi (soprano) Mariya Kallas (Maria Callas – Sophia Cecelia Kalos; 1923-1977) anadan olub.

**3 dekabr** Beynəlxalq Əlillər Günüdür. BMT Baş Assambleyasının 1992-ci il 14 oktyabr tarixli qətnaməsi ilə təsis olunub.

**3 dekabr 1927** – Amerika estrada müğənnisi və aktyor Endi Vilyams (Andy Williams – Howard Andrew Williams; 1927-2012) anadan olub.

**4 dekabr 1875** – Avstriyalı ekzistensialist şair Rayner Maria Rilke (Rainer Maria Rilke; 1875–1926) anadan olub.

**4 dekabr 1896** – Rus şairi, yazıçı Nikolay Semyonoviç Tixonov (1896-1979) anadan olub. Azərbaycan şairlərinin əsərlərini rus dilinə tərcümə edib.

**4 dekabr 1922** – Fransız aktyoru Jerar Filipp (Gerard Philipe; 1922-1959) anadan olub. Filmləri: "Fanfan-zanbaq", "Böyük manevrlər", "Təhlükəli əlaqələr" və s.

**5 dekabr 1791** – Dünya şöhrətli Avstriya bəstəkarı Volfqanq Amadey Motsart (Wolfgang Amadeus Mozart; 27.1.1756 – 1791) vəfat edib.

**5 dekabr 1901** – Amerikalı multiplikasiya rəssamı, rejissor, prodüser Uolt Disney (Walter Elias "Walt" Disney; 1901-1966) anadan olub. Cizgi filmləri üzrə 26 dəfə "Oskar" mükafatına layiq görülüb.

**Hazırladı: Vüqar ORXAN**

№89 (1866)
1 dekabr 2021
www.medeniyyet.az

# TÜRKSOY Aşıq Ələsgəri Türkiyədə tanıdır

## Ustad sənətkarın 200 illiyi münasibətilə Ankarada və Sivasda tədbirlər

əvvəli səh. 1-də

Mərasimdə çıxış edən Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Azərbaycan Prezidenti İlham Əliyevin Aşıq Ələsgərin anadan olmasının 200 illik yubileyinin keçirilməsi haqqında sərəncamını əhəmiyyətini vurğulayaraq bu kontekstdə Türk dünyasında fəaliyyət göstərən qardaş təşkilatların yubileyə töhfə olan təşəbbüslərini yüksək qiymətləndirib. Qeyd edib ki, Aşıq Ələsgərin irsinin təbliği həm də onun doğulduğu, yaşayıb-yaratdığı Azərbaycanın qədim yurd yeri Göyçənin, bu torpağın mədəni irsinin tanıdılmasıdır: "Aşıq Ələsgər Göyçə deməkdir".

Azərbaycan Mədəniyyət Nazirliyinin nümayəndəsi Nərmin İsmayılova çıxışında Aşıq Ələsgərin anadan olmasının 200 illik yubileyi ilə bağlı nazirlik tərəfindən həyata keçirilən tədbirlərdən bəhs edib.

Sonra "Ulu Göyçə" sənədli filmi göstərilib.

Tədbir panel toplantısı ilə davam edib. Paneldə Cümhuriyyət Universiteti Türk Araşdırmaları Mərkəzinin sədri, şair-tərcüməçi Kənan Çarboğa, Azərbaycan Aşıqlar Birliyinin (ABB) katibi Musa Nəbioğlu, "Dünya Söz Akademiyası" Dərnəyinin (Türkiyə) başqanı, professor Hayrettin İvgin, "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri Xətai Ələsgər çıxış ediblər.



Çıxışlarda Aşıq Ələsgər yaradıcılığının araşdırılması, Azərbaycanda Ələsgər sənətinə və onun inkişafına göstərilən diqqət və qayğı, saz-söz sənəti sərrafının Türk dünyasında tanıdılmasının vacibliyi məsələlərinə toxunulub. Diqqətə çatdırılıb ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan aşıq ədəbiyyatında ustad Aşıq Ələsgərin yaradıcılığı xüsusi bir mərhələdir. Dədə Ələsgər kimi xalq arasında sayılıb seçilən sənətkar kimi "Haqq aşığı" adını qazanıb və sevilib.

Tədbir çərçivəsində musiqili bədii hissə də təqdim olunub. Azərbaycanlı aşıq Ramin Qarayev və türkiyəli el sənətkarı aşıq Səlahəddin Dündar Aşıq Ələsgərin əsərlərindən nümunələr ifa ediblər.

***

Aşıq Ələsgər aşıqlıq sənətində bütün türk dünyasının ən böyük ustadlarından biridir. Ustad aşıqlarımızın hər biri öz dövründə müəyyən yeniliklər edib. Ustad Ələsgərin bu sənətə gətirdiyi yeniliklər hər zaman diqqətdə olub. Bu fikri professor Hayrettin İvgin söyləyib.

Azərbaycanın böyük el sənətkarının 200 iliyi münasibətilə Türkiyədə də tədbirlər keçirildiyini deyən Elçin Qafarlı TÜRKSOY-un da Aşıq Ələsgərin yubileyinə töhfə verdiyini diqqətə çatdırıb: "TÜRKSOY olaraq Aşıq Ələsgərin seçmə şeirlərini türk dilinə tərcümə etdirib nəfis şəkildə nəşr etdirdik. Kitabın təqdimatının türk dünyasının mədəniyyət ocağında keçirilməsi mühüm məsələdir. Əminəm ki, bu kitab ustad Aşıq Ələsgərin Türkiyədə daha geniş tanınmasına təsir göstərəcək".

***

Qeyd edək ki, TÜRKSOY-un təşəbbüsü ilə Aşıq Ələsgərin 200 iliyi münasibətilə daha bir tədbir noyabrın 28-də Türkiyənin aşıqlar diyarı Sivasda keçirilib. TÜRKSOY və Sivas Valiliyinin birgə keçirdiyi mərasimə Sivas bələdiyyə başqanını əvəz edən Turan Topgül, Sivas valisinin müavini Yardımcısı Şakir Öner





Aşıq Ələsgərin böyük yaradıcılıq irsi formalaşdırdığını diqqətə çatdıran professor Hayrettin İvgin vurğulayıb ki, Aşıq Ələsgər yalnız Azərbaycanın deyil, bütün türk dünyasının aşığı, aşıqlıq sənətinin ən böyük ustadıdır.

Məqsədimiz Aşıq Ələsgəri Türkiyə ictimaiyyətinə daha geniş tanıtmaqdır. Bunu isə Azərbaycanın TÜRKSOY-dakı təmsilçisi Elçin Qafarlı söyləyib.

Öztürk, Azərbaycanın TÜRKSOY-dakı təmsilçisi Elçin Qafarlı, digər dəvətlilər qatılıblar.

Mərasimdə şair-tərcüməçi Kənan Çarboğa, ABB-nin katibi Musa Nəbioğlu, "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri Xətai Ələsgər çıxış ediblər. TÜRKSOY tərəfindən nəşr edilmiş "Aşıq Ələsgərin seçilmiş şeirləri" kitabının simvolik lenti kəsilərək təqdimatı keçirilib.

**Mehparə SULTANOVA**
**Ankara**

# Türk Mədəniyyəti və İrsi Fondu Polşa tatarlarının irsinə diqqət ayırır

Xəbər verdiyimiz kimi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Polşaya səfər edib. Fondun prezidenti bu ölkədə tatarların sıx məskunlaşdığı Polşanın Belostok şəhərində, eləcə də Sokoliki və Bohoniki bölgələrində olub.



Fonddan bildirilib ki, Günay Əfəndiyeva səfər çərçivəsində Polşanın Baş müftisi Tomasz Miskievicz, Belostok şəhərinin meri Tadeusz Truskolaski, Sokoliki Yerli Parlamentinin sədri Piotr Karol Bujvicki ilə görüşüb.

Görüşlərdə türk kökənli milli azlıqların – altı əsrdən çox Polşa ərazisində yaşayaraq öz milli mənsubiyyətlərini qoruyub saxlayan tatarların zəngin irsinin beynəlxalq aləmdə təbliği, onların mədəniyyətinin, tarixinin qorunması ilə bağlı məsələlər müzakirə edilib. Türk xalqlarının qədim mədəni dəyərlərinin mühafizəsinin və gələcək nəsillərə ötürülməsinin Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən olduğu diqqətə çatdırılıb.

Görüşlərdə Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova da iştirak edib.

Günay Əfəndiyeva Belostok şəhərində tatarlara məxsus olan məscid və qəbiristanlığı da ziyarət edib, Sokoliki bölgəsində tatarların regional muzeyi ilə tanış olub. Tatar icmasının nümayəndələri tərəfindən konsert proqramı təqdim edilib.

# "Sonuncu" filmi daha iki mükafat qazanıb

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və "Salnaməfilm" Studiyası tərəfindən istehsal olunmuş "Sonuncu" sənədli filmi 20-26 noyabr tarixlərində keçirilən 27-ci "Listapad" Minsk Beynəlxalq Film Festivalının (Belarus) sənədli filmlər üzrə müsabiqə bölməsində "Za vernostğ janru" ("Janra sədaqət") mükafatına layiq görülüb.

"Sonuncu" filmi, həmçinin 23–28 noyabr tarixlərində Polşanın Lodz şəhərində keçirilən 31-ci Media Festivalı – "Man in Danger"də polyak sənədli kinosunun klassiki Kazimierz Karabasz adına "Patient Eye" ("Səbirli göz") mükafatını qazanıb.

Filmin baş prodüseri Arzu Əliyeva, prodüserləri Orman Əliyev və Nazim Hüseynov, rejissoru Fariz Əhmədov, ssenari müəllifləri Esmira Əyyub və Fariz Əhmədovdur. Filmin təsvir rejissoru polşalı kinematoqrafçı Mateuş Çuxnovskidir.

Film Xəzər dənizindəki (Bakıdan 150 km cənubda) Kürdili yarımadasının sonuncu sakini Vitali Pronindən bəhs edir. 1981-ci ildə dənizdə suyun səviyyəsinin qalxması nəticəsində vaxtilə həyat qaynayan Kürdili adaya çevrilərək yaşayış üçün əlverişsiz hala gəldi. Əhalinin əksəriyyəti adadan köçdü… 68 yaşlı Vitalidən başqa… O, adayla nəfəs alır. Son nəfəsini də adada alır…

Premyerası bu il nı 50-ci Rotterdam Beynəlxalq Film Festivalında olan "Sonuncu" filmi Bosniya-Herseqovinada keçirilən 15-ci "Jahorina Film Festivalı"nda "Ən yaxşı sənədli film" nominasiyası üzrə "Golden Maple" ("Qızıl ağcaqayın"), Polşada keçirilən "OFF CINEMA" 25-ci Beynəlxalq Sənədli Film Festivalında "Bronze Castle" ("Bürünc qəsr") mükafatlarına layiq görülüb.

# Əmir Teymur Samarada görünəcək

Rusiyanın Samara vilayətində hökmdar, sərkərdə və fateh Əmir Teymurun (1336–1405) heykəli ucaldıla bilər. Abidənin Samara vilayətində Kondurça çayının yaxınlığında qoyulması planlaşdırılır. Özbəkistan Respublikası Nazirlər Kabinetinin 17 noyabr 2021-ci il tarixli qərarında belə deyilir.

Sənədə əsasən, Özbəkistan hökuməti 600 il bundan əvvəl Əmir Teymurun Qızıl Orda hökmdarı Toxtamış xanın üzərində qələbəsi şərəfinə qoyulacaq heykəli Rusiya Federasiyasına verəcək. Qərarda Samara diyarşünaslarının Kondurça çayı sahilində qoyduqları xatirə daşının yerində Əmir Teymuru və onun döyüşçülərini təsvir edən abidə-kompozisiyanın qurulması üçün baxış-müsabiqənin keçirilməsi də təklif edilir.

Müsabiqənin yekunlarına görə Özbəkistan tərəfi Rusiyanın Xarici İşlər və Mədəniyyət nazirlikləri ilə birlikdə heykəlin qoyulması haqqında memorandum imzalamaq niyyətindədir. Layihənin 2023-cü ilədək başa çatdırılması nəzərdə tutulub.

**GÜLCAHAN**

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin kollektivi Mədəniyyət Nazirliyi üzrə Elmi Metodiki və İxtisasartırma Mərkəzinin Metodiki İş şöbəsinin baş metodisti Pakizə Almazovaya

**anası Hafizə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

# Dünya Mədəni Özünüifadə Festivalı

## Florensiyada Şuşa və Şəki şəhərləri ilə bağlı təqdimatlar olub

Avropa Parlamentinin himayədarlığı, "Romualdo Del Bianco" Fondunun və "Life Beyond Tourism – Travel to Dialogue" Hərəkatının təşkilatçılığı ilə Florensiyada keçirilən "Dünya Mədəni Özünüifadə Festivalı" çərçivəsində Şuşa və Şəki şəhərləri ilə bağlı təqdimatlar olub.

Beş il ərzində davam etməsi nəzərdə tutulan festivalın builki ilk tədbirində İtaliya və Azərbaycan, Çin, Hindistan, Yaponiya – ümumilikdə 10-dan çox ölkədə 45-dək şəhər və məkanla bağlı təqdimatlar keçirilib.

Tədbirdə Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) və Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) nümayəndələri də iştirak ediblər.

ATMU-nun tələbələri "Şuşa – dağlardan gələn səsin harmoniyası", AzMİU-nun tələbələri isə "Şəkinin mədəni və memarlıq irsi" mövzularında təqdimatlarla çıxış ediblər. İştirakçılara Şuşa və Şəkinin tarixi, burada mövcud olan mədəni, milli, dini irs nümunələri, yerli mətbəx, ictimai xadimlər və sair barədə məlumat verilib.



AzMİU-nun Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının müdiri professor Səbinə Hacıyeva COVİD-19 pandemiyasının mədəni irs obyektlərinin bərpası və fəaliyyətinə təsiri ilə bağlı təqdimat edib, eyni zamanda, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mədəni irsimizə dəyən zərərlə bağlı bir sıra məqamlara toxunub.

Festival çərçivəsində noyabrın 25-28-də Florensiyanın İntibah dövrü memarlığı nümunələrindən olan "Palazzo Medici Riccardi" sarayında İtaliya və Azərbaycan da daxil olmaqla, iştirakçı ölkələrin şəhər və məkanları ilə bağlı fotosərgi nümayiş etdirilib.

Tədbirdə iştirak edən Azərbaycanın İtaliyadakı səfirliyinin birinci katibi Nemət Əliyev təşkilatçılara təşəkkür edərək dünya İntibahının beşiyi sayılan Florensiyada ölkəmizin şəhərləri ilə bağlı təqdimat imkanını yüksək qiymətləndirib. Şuşa şəhərinin Azərbaycan mədəniyyətinin intibahında oynadığı rol vurğulanıb, işğal dövründə şəhərdəki mədəni irs nümunələrinin əksəriyyətinin dağıdıldığı və vandalizmə məruz qaldığı qeyd edilib. Şuşanın işğaldan azad edildikdən Azərbaycanın mədəniyyət paytaxtı elan olunması ilə bağlı məlumat verilib, tarixi həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün İtaliyada görülən işlərə toxunulub və İtaliyadakı səfirliyimizin təşkil etdiyi Zəfər Günü ilə bağlı tədbirdə italyan dilində nəşr olunan "Şuşa" kitabının təqdimatının keçirildiyi diqqətə çatdırılıb.

Qeyd edək ki, festival müxtəlif məkanların mədəni özünüifadələrini, yerli icmaların mədəni maarifləndirilməsini təşviq etmək, regional platformalarla onların beynəlxalq cəlbediciliyini artırmaq, turizmdən inklüzivlik, mədəniyyətlərarası dialoq naminə yararlanmaq məqsədi daşıyır.

# "Lüksemburq Beynəlxalq Bazarı"nda Azərbaycan stendi



Azərbaycan-Lüksemburq Ticarət Palatasının və bu ölkədə fəaliyyət göstərən "Qarabağ" Assosiasiyasının təşkilatçılığı ilə "Lüksemburq Beynəlxalq Bazarı"nda ölkəmiz böyük stendlə təmsil olunub.

Qala divarları formasında qurulmuş və milli ornamentlərlə bəzədilmiş stenddə ölkəmizin tarixi, mədəniyyəti, musiqisi, mətbəxi ilə bağlı nəşrlər nümayiş olunub və ziyarətçilərə hədiyyə edilib. Gün ərzində Azərbaycanı təmsil edən stenddə qurulmuş böyük ekranda mədəniyyətimizi təşviq edən video yayımlanıb.

"Lüksemburq Beynəlxalq Bazarı"nda ziyarətçilərə "Made in Azerbaijan" brendi məhsulları, təravətli çaylar, meyvə şirələri, nar şirəsi, quru meyvələr təqdim olunub. Lüksemburqluların Milad bayramı ərəfəsində keçirilən bazardan yaxınları üçün hədiyyələr almaq imkanı olub.

Qeyd edək ki, ölkəmiz artıq yeddinci dəfə "Lüksemburq Beynəlxalq Bazarı"nda təmsil olunur. Multikulturalizm mühitində fəaliyyət göstərən bu bazar xeyriyyəçilik məqsədilə keçirilir, əldə edilən gəlir köməyə ehtiyacı olan ölkəyə verilir.

Azərbaycan stendi haqqında yerli RTL radiosunda da məlumat verilib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 2446
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.